QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 051 (6251) 19 mart 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## YAP Veteranlar Şurasının ilk iclası keçirilib

Bax 4




Martın 18-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının ilk iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının...

## "Prezident əfv Sərəncamı ilə yüzlərlə ailəyə bayram sevinci bəxş etdi"



"Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün imzalanan "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam dövlətimizin başçısının hümanizm siyasətinin, vətəndaş amilinin hər zaman öndə dayanmasının növbəti təzahürüdür. Zamanla görürük ki, istər Novruz bayramı ərəfəsində, istər Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində, istərsə də digər...

Bax 5

## Şuşada olan tarixi abidələrimizə qarşı erməni vandallığı




30 ilə yaxın erməni işğalçıları tərəfindən işğal olunan qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən...

Bax 11

# Azərbaycan Prezidentindən növbəti humanist addım!

*Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması barədə Sərəncam imzalayıb*



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb.

Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad ediliblər.

Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər.

**19 mart terror aktından 27 il ötür**



Bax 12

**Aydın Quliyev: "Əfv Sərəncamı ölkəmizdə hüquq sisteminin humanist xarakter daşıdığını bir daha nümayiş etdirdi"**



Bax 7

**Ronaldo təkid etdi, Azərbaycanla oyun bu arenaya salındı**




Bax 16

# “Zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir”

*Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib*

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə dövlətimizin başçısı Novruz bayramının bizə ulu əcdadlarımızın təbiətin əbədi nizamına ehtiramını ifadə edən müqəddəs yadigarı olduğunu bildirib. Qeyd edib ki, bu bayram Azərbaycan xalqının qədim və zəngin dünyagörüşünün, gələcəyə nikbin baxışının, bütövlükdə milli varlığımızın dolğun təcəssümü olub, mədəni sərvətlər xəzinəmizdə müstəsna yer tutur. Yad təsirlərdən qoruyaraq layiqincə yaşatdığımız Novruz ənənələri çoxəsrlik keçmişinə daim ehtiramla yanaşan xalqımızın, eyni zamanda, bəşər mədəniyyətinə töhfəsidir.



Təbrikdə bildirilib ki, yaz bayramının Odlar diyarına builki gəlişi xüsusən əlamətdardır. “Şadam ki, müstəqilliyimizin bu baharına dövlətçilik tariximizdə qızıl hərflərlə əbədi qalacaq və həyatımıza hələ yeni-yeni nailiyyətlər bəxş edəcək parlaq Qələbə ilə qədəm qoymuşuq. Haqq işi uğrunda mübarizə duyğusundan aldığımız misilsiz mənəvi güclə biz sınaq anında yumruq kimi birləşərək əzəli torpaqlarımıza xaincəsinə uzanan əlləri kəsmiş, yurdumuzu bədxah düşməndən təmizləmiş və ədaləti qanımız bahasına bərpa etmişik. Ruhumuzun yenilməzliyinin təntənəsinə çevrilən və bizi dünyaya məğrur millət olaraq tanıdan şanlı Zəfərimiz Azərbaycana əbədi bahar gətirmişdir”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident vurğulayıb ki, xalqımızın qalibiyyət ovqatını bütün qəlbi ilə yaşadığı bu bayram günlərində bir daha Vətənimizin ərazi bütövlüyü naminə canlarını fəda etmiş qəhrəman övladlarımıza rəhmət diləyir, onların əziz xatirəsini dərin ehtiramla yad edirik.

“İrəlidə bizi işğaldan azad olunmuş yurd yerlərimizdə nəhəng quruculuq işləri gözləyir. İnanıram ki, yaz fəslinin qurub-yaratmaq əzmimizi artıran yeniləşdirici ab havası ilə həmahəng birlik və həmrəylik nümayiş etdirəcək, böyük qayıdış planımızı sülh və əmin-amanlıq şəraitində uğurla gerçəkləşdirəcək, doğma Qarabağı qısa müddətdə dirçəldəcəyik. Hamınıza bahar əhval-ruhiyyəsi arzu edirəm. Bu bayram öz gəlişi ilə evinizə, ocağınıza bol ruzi-bərəkət və firavanlıq gətirsin!

Novruz bayramınız mübarək olsun!”, - deyə təbrikdə bildirilib.

## Rəsmi xronika

“Mənim administrasiyam təhlükəsizliklə bağlı ümumi narahatlıqlar və regional barışıq məsələlərinin həlli istiqamətində Azərbaycanla birgə çalışacaq”. Bu barədə Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı təbrikdə bildirilib.

“ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi, biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə uzunmüddətli həllinə nail olmaq üçün tərəflərə yardım etməyə, firavan və dinc gələcək naminə Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına sadiq qalırıq”, - təbrikdə qeyd edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sisteminə işə götürülən işçilərin ştat sayının həddi”ndə və “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Emin Səlhab oğlu Məmmədovun “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 107-ci kitabı çapdan çıxıb

*Kitabda Azərbaycan Prezidentinin Vətən müharibəsi zamanı xalqa müraciətlərinin və xarici KİV-lərə bir sıra müsahibələrinin mətnləri toplanıb*

Bilirsiniz, mənə minlərlə məktub gəlir. Bu məktubları oxuyanda, sözün düzü, mən də bəzi hallarda sevinc göz yaşlarımı saxlaya bilmirəm. O məktublarda o qədər səmimi, o qədər isti, o qədər qürurverici sözlər yazılır və mənə mesaj kimi çatdırılır. O məktubları oxuyanda bir daha görürəm ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Uzun illər belə vəziyyətdə yaşamaq, ancaq ümidlərlə yaşamaq, o ümidlərlə ki, gün gələcək və onlar öz dədə-baba ocağına qayıdacaqlar. Bu, doğrudan da böyük fədakarlıqdır. Mən çox xoşbəxtəm ki, bu qələbə sevincini bizim insanlara bəxş edə bildik.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 107-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2020-ci il oktyabrın 15-də Türkiyənin NTV televiziya kanalına müsahibəsində söyləyib.

Çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci il oktyabrın 15-dən noyabrın 4-dək olan dövrü - Vətən müharibəsinin davam etdiyi günləri əhatə edir. Həmin taleyüklü günlərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev eyni vaxtda üç cəbhədə - döyüş meydanında, diplomatik müstəvidə və informasiya məkanında əzmlə, uğurla mübarizə aparırdı. Dövlətimizin başçısı xarici telekanallara, beynəlxalq informasiya agentliklərinə müsahibələrində xalqımızın haqq səsini, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırır, işğalçı Ermənistana və onu himayə edənlərə açıq mesajlar verirdi. Kitaba daxil edilən bu və digər materiallar Azərbaycanın şanlı Vətən müharibəsi haqqında dolğun təsəvvür yaradır.

Bu cilddə Prezident İlham Əliyevin “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinə (Rusiya), “A Haber” telekanalına (Türkiyə), TASS informasiya agentliyinə (Rusiya), “Nikkei” (Yaponiya), “Figaro” (Fransa) qəzetlərinə, “Fox News” (ABŞ), “RAİ-1” (İtaliya) televiziya kanallarına, “İnterfaks” agentliyinə (Rusiya), ARD telekanalına (Almaniya), “La Republica” qəzetinə (İtaliya), EFE informasiya agentliyinə (İspaniya) müsahibələrinin mətnləri daxil edilib.

Kitabda Azərbaycan Prezidentinin xalqa müraciətlərinin mətnləri ilə yanaşı, rəsmi “Twitter” hesabında paylaşımları da yer alıb. Bu paylaşımlarda rəşadətli ordumuzun cəbhədə qazandığı qələbələr, işğaldan azad edilmiş ərazilərimiz barədə məlumatlarla, eyni zamanda, Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə cinayətlərini, Gəncə və Bərdəni raket atəşinə tutmasını qətiyyətlə pisləyən bəyanatlarla tanış olmaq mümkündür.




Çoxcildliyin 107-ci kitabında Prezident İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop, qardaş ölkənin Baş Ombudsmanı Şərəf Malkoç, xarici işlər naziri Mövlud Çavuşoğlu, sabiq Baş nazir Binəli Yıldırım ilə görüşləri, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi, İran Prezidentinin xüsusi nümayəndəsi Seyid Abbas Əraqçini qəbul etməsi, Türkiyə və Rusiya liderləri ilə telefon danışıqları barədə materiallar verilib.

Oxucular yeni nəşrdə Azərbaycan Prezidentinin Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirdiyi operativ müşavirədə çıxışının mətni ilə də tanış ola bilərlər. “Azərnəşr” tərəfindən buraxılan 107-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Sahibə Qafarova Belarusun Azərbaycandakı səfiri ilə görüşüb

Martın 18-də Milli Məclisin Sədri Sahibə Qafarova Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov ilə görüşüb. Milli Məclisdən SİA-ya bildirilib ki, Sədr qonağı salamlayaraq, xalqlarımız arasında ənənəvi dostluq münasibətlərinin mövcud olduğunu vurğulayıb. Bildirilib ki, ölkələrimiz dövlət müstəqilliyini bərpa etdikdən sonra bu münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar və ölkələrimiz arasında imzalanmış sənədlər nəticəsində son illərdə Azərbaycan və Belarus siyasi, iqtisadi sahələrdə fəal əməkdaşlıq həyata keçirib və ötən il pandemiya şəraitinə baxmayaraq, birgə əməkdaşlıq sahəsində müsbət nəticələr əldə olunub.



Qeyd olunub ki, siyasi və iqtisadi sahələrdəki bu sıx əməkdaşlıq humanitar sahədə də əlaqələrin genişlənməsinə öz müsbət təsirini göstərməkdədir. Bu cür əlaqələr xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət edir. Söhbətdə Sədr bildirib ki, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsində parlamentlərimiz də öz töhfəsini vekməkdədir. Hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qrupları fəaliyyət göstərir. Deputatların qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq qurumlarda görüşləri tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox önəmlidir. Görüşdə Sahibə Qafarova 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın öz torpaqlarını erməni qəsbkarlarından azad edərək, 30 illik işğala son qoyduğunu deyib. Milli Məclisin Sədri problemin həllində Belarusun hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə minnətdarlığını ifadə edib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov təmsil etdiyi ölkənin Azərbaycanla əlaqələrin inkişafına böyük maraq göstərdiyini söyləyib. Qeyd edilib ki, dövlət başçıları arasındakı dostluq münasibətləri iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına da təsir edir.

Qonaq bildirib ki, parlamentlər səviyyəsində əlaqələrin daha da dərinləşməsi xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Nümayəndə heyətlərinin səfərləri əlaqələrin genişlənməsi və informasiya mübadiləsi baxımından əhəmiyyətlidir.

Səfir Vətən müharibəsində Azərbaycanın azad etdiyi ərazilərdəki vəziyyətlə yaxından tanış olduğunu, ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha qeyd edib. Söhbətdə tərəfləri maraqlandıran məsələlər ətrafında danışılıb.

# Gələcək inkişafla bağlı yeni hədəflər, tələblər, vəzifələr

Son illər ölkəmizdə böyük tarixi hadisələr bir-birini əvəz etməkdədir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin son 17 illik prezidentlik fəaliyyətinin uğurlu göstəricisidir. Ən böyük tarixi hadisəni 10 noyabr 2020-ci ildə yaşadıq. 30 illik həsrətə 44 gün ərzində Ali Baş Komandanımız, Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərimizin şücaəti ilə böyük Qələbə Zəfəri ilə haqqın, ədalətin, ərazi bütövlüyümüzün bərpasına, Qarabağ Azərbaycanımıza qovuşduq. Yarandığı gündən xalqın dəstəyini qazanan Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayı Azərbaycanın ərazi bütövlüyünün bərpası baxımından tarixi bir mərhələdə keçirildi. Partiyanın hər qurultayı ictimaiyyəti müəyyən tarixi missiyanın həyata keçirilməsinə səfərbər edir, cəmiyyətin diqqətini bu missiyaya yönəldir. Bu qurultay Vətən müharibəsindən sonra ictimaiyyətin diqqətini çəkən böyük siyasi hadisədir.



## Prezident İlham Əliyev: "Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər"

### "Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi"

"Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. O vaxt cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzəcə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter alıb".,-deyən dövlət başçısı bildirib: "Hərbi məğlubiyyət, eyni zamanda, daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər siyasi çəkişmələr. Hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. O günləri, o ayları təsəvvür etmək üçün bax, bu gün Ermənistanda baş verən hadisələrə nəzər yetirmək kifayətdir. Faktiki olaraq onun əksidir, ümidsizlik, total cəmiyyətdə hökm sürən apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması, iqtidara inamın olmaması, müxalifətə inamın olmaması, bax, bu, idi o vaxt Azərbaycan - gənc müstəqil Azərbaycanın mənzərəsi. Belə olan vəziyyətdə ölkə necə inkişaf edə bilərdi?!" Prezident xatırladıb ki, torpaqlarımız əldən gedirdi, ərazi bütövlüyümüz pozulmuşdu, Ermənistandan 300 mindən çox azərbaycanlı, Dağlıq Qarabağdan bütün azərbaycanlılar qovulmuşdu, Şuşa və Laçın işğal altına düşmüşdü, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaranmışdı, qaçqınlar, köçkünlər yaranmışdı və gələcək üçün, bu vəziyyəti dəyişdirmək üçün heç bir əsas yox idi.

"Kim bu vəziyyəti dəyişdirəcəkdi? O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü. Hakimiyyətə gəlmiş təsadüfi adamlar eynən Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn insanlarla, onlar elə bil ki, əkiz qardaşdırlar. Təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari, daha hansı epitet qaldı. İstənilən mənfi epitet bunlara yaraşır. Bax, bunlar idi o vaxt Azərbaycanı idarə edənlər", - deyə Prezident İlham Əliyev əlavə edib.

### "Ölkəmizin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin"

"Xalq 2003-cü ildə Heydər Əliyev siyasətinə səs vermiş, mənə etimad göstərmişdir. Çünki mən demişdim ki, əgər xalq etimad göstərərsə, Ulu Öndərin siyasətinə sadiq qalacağam. O, əsas amillərdən biri idi. Həyat onu göstərdi ki, biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq",-deyən Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında son 17 ildə qazanılan uğurlardan danışarkən söyləyib. Dövlətimizin başçısı deyib: "Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər. Çünki bu, ölkəmizin əvvəlki dövrə, o möhkəm təmələ əsaslanmış, amma yeni dövrü idi. Bu da təbiidir. Çünki hər dövrün öz tələbləri var. Biz XXI əsrdə 1990-cı illərin tələbləri ilə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub da bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməli, zamanı qabaqlamalıyıq".

Dövlətimizin başçısı deyib: "Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə kimi bu vaxta qədər qurmuşuq. 1993-2003-cü illər həlledici illər olmuşdur. Dövlətçiliyin əsasları qoyulmuşdur. 20 Yanvar faciəsinə siyasi qiymət verilmişdir. Nə üçün Xalq Cəbhəsi-Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Onların bir il vaxtı var idi. Nə üçün? Çünki onların da əli qana - Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini ört-basdır etmək istəyirdilər". Prezident vurğulayıb ki, yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi: "Konstitusiya yalnız Heydər Əliyevin dövründə qəbul edildi. Senzura məhz onun göstərişi ilə, Xalq Cəbhəsi-Müsavat cütlüyü tərəfindən qoyulan senzura onun tərəfindən ləğv edildi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Biz beynəlxalq təcriddən çıxdıq. Azərbaycan artıq hörmətli və hörmətə layiq olan ölkə kimi tanınmağa başlandı. Ölkəmizə böyük investisiyalar cəlb edildi. Ordu quruculuğuna start verildi. Bizim nizami ordumuz yox idi. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. O kadrlar ki, bu gün ölkəmizin müxtəlif sahələrində öz töhfəsini verirlər". "Mən bu gün bir daha o vaxt milli maraqları hər şeydən üstün tutan "91-lər"i qeyd etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının veteranlar şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır",-deyən Azərbaycan Prezident deyib ki, hər zaman "91-lər"in fəaliyyətini yüksək qiymətləndirdiyini bildirən dövlətimizin başçısı deyib: "Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular. Faktiki olaraq 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş - 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başlandı".Yeni Azərbaycan Partiyasının Sədri qeyd edib ki, biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər: "Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın, bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər. Sovet İttifaqı demək olar ki, dağılırdı. Artıq parçalanma prosesləri gedirdi. Nəyi gözləyirdilər 18 oktyabra qədər. Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır".

### "AXC-Müsavat cütlüyü dövründə ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi"

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VII qurultayındakı çıxışında AXC-Müsavat cütlüyü dövründə ölkədə yaranmış acınacaqlı vəziyyətdən danışarkən bildirib: "Eynən 2018-ci ildə Ermənistana gəlmiş adamlar kimi, onlar da ölkəni dağıdırdılar və nəticə etibarı ilə gətirdilər bizi uçurum kənarına qoydular. Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox. Məhz bu idi Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurəti".Yeni Azərbaycan Partiyasının təsis qurultayının Naxçıvanda keçirilməsinin səbəblərindən danışan dövlətimizin başçısı deyib: "Bakıda imkan vermədilər. O qədər Heydər Əliyev fenomenindən qorxurdular, o qədər öz cılız mahiyyətini özləri dərk edirdilər ki, bilirdilər, əgər bu qurultay Bakıda keçirilsə bunların hakimiyyətinə son qoyulacaq. Çünki onlara xalq tərəfindən olan nifrət artıq bütün həddini keçmişdi".

"Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirib",-deyən Prezident İlham Əliyev qeyd edib ki, bizim siyasətimizlə bağlı son vaxtlar dünyada aparılan düzgün təhlillər və fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir və İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaradıb. Bölgədə yeni əməkdaşlıq imkanları yaranıb. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər, eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıb.

### Dialoq mühiti dərinləşir, demokratik ənənələr şaxələnir

Hakim partiyanın ali toplantısında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edilməsi də mühüm hadisə idi. Bu, siyasi həmrəyliyin, milli birliyin əyani təzahürü oldu. Partiyaların YAP-a birləşməsi cəmiyyətdə iqtidara qarşı olan müsbət münasibətin və inamın göstəricisi kimi də qiymətləndirilə bilər. Əlbəttə ki, bu, ölkədə dialoq mühitinin dərinləşməsinə və demokratik ənənələrin şaxələnməsinə xidmət edəcək.Prezident İlham Əliyev də bunu çox önəmli, əlamətdar hadisə adlandıraraq ölkədə siyasi sistemin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addım kimi qiymətləndirdi. Bu, eyni zamanda göstərir ki, partiyanın məramı, proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir. Yeni partiyaların YAP-a birləşməsi əlbəttə ki, təşkilatı daha da gücləndirəcək və yeni qərarların qəbulunu, mühüm addımların atılmasını şərtləndirəcək. Partiya sədri də hesab edir ki, bütün bunlar nəzərə alınaraq təşkilatın yeni proqramı hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. Bu səbəbdən də Prezident İlham Əliyev İdarə Heyətinə 3 ay ərzində partiyanın yeni proqramının hazırlanması ilə bağlı tapşırıq verdi.

### Uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq

Qurultayda yeni hədəfləri, qarşıda duran vəzifələri müəyyənləşdirən İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən ölkədir. Heç kim Azərbaycanla diktə dili ilə danışa bilməz. Bu il müstəqilliyinin 30 illiyini qeyd edəcək Azərbaycan indiyədək heç kimə hesabat verməyib, bundan sonra da bu siyasət davam etdiriləcək. Müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Son illərin təcrübəsi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi. Prezident də vurğuladı ki, bütün cəhdlər puç olub və bundan sonra da istənilən təxribata layiqli cavab veriləcək: "Biz müstəqil siyasət apararaq bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır".

Bu həqiqətdir ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasəti, həmçinin Vətən müharibəsində qazanılmış Qələbə ölkədə milli birliyi daha da möhkəmləndirib. Prezidentin həyata keçirdiyi mütərəqqi islahatlar isə xalq tərəfindən yüksək qiymətləndirilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq. Çünki görülən işlər və İlham Əliyevin yürütdüyü qətiyyətli, prinsipial, uzaqgörən siyasət yeganə düzgün siyasətdir.

**RƏFİQƏ KAMALQIZI**

# Qırğızıstan portalında Azərbaycan Prezidentinin Füzuli və Xocavəndə səfəri ilə bağlı material verilib


АЗЕРБАЙДЖАН
УЗБЕКИСТАН
КЫРГЫЗСТАН
КАЗАХСТАН
ТУРЦИЯ
ТУРКМЕНИСТАН
БИБЛИОТЕКА
ИСТОРИЯ транснационального армянского терроризма в XX столетии

Президент Ильхам Алиев и первая леди Мехрибан Алиева посетили Физулинский и Ходжавендский районы ОБНОВЛЕНО

Как уже сообщалось, 16 марта Президент Азербайджанской Республики Ильхам Алиев, первая леди Мехрибан Алиева и их дочь Лейла Алиева побывали в Физулинском и Ходжавендском районах.

Как сообщает АЗЕРТАДЖ, **Президент Ильхам Алиев** сказал:

-Я снова на освобожденных от оккупации землях. Сегодня я заложу фундамент автомобильной дороги Физули-Гадрут. Строительство этой дороги имеет большое значение для восстановления освобожденных территорий. Это не первый проект. Уже реализуется несколько дорожных проектов. Начато восстановление освобожденных земель. Прокладывается дорога из Физули в Шушу — Дорога Победы. Кроме того, в ближайшее время начнется прокладка дороги Барда-Агдам. Будет проложена дорога от Горадиза до Зангилана. Словом, несмотря на то, что с войны прошло четыре месяца, началась большая созидательная работа.

И вновь находясь на освобожденных землях, глядя на эти руины, мы еще раз видим, что ненавистный враг до основания разрушил все наши населенные пункты, хотел стереть наше историческое наследие. Но ему это не удалось. Мы вернулись на эти земли. Мы вернулись как героический народ, как государство-победитель. Мы изгнали врага с родных земель.

Сегодня по пути на освобожденные земли мы проехали через село Гараханбейли. Село Гараханбейли было освобождено в первый день войны — 27 сентября. Именно отсюда, с этого направления мы начали выполнять нашу славную миссию и изгнали противника с наших земель. А сейчас мы занимаемся созидательной работой. Сейчас начинается новый период нашей жизни — период созидания, развития, восстановления наших земель.

**Qırğızıstanın "turktoday.info" portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Füzuli və Xocavənd rayonlarına getmələri ilə bağlı AZƏRTAC-ın materialını verib.**

Materialda Prezident İlham Əliyevin səfər çərçivəsində Füzuli-Hadrut, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoyması, Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırması və çıxış etməsi əks edilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasına getmələri, Hünərli kəndindəki Alban məbədi ilə tanış olmaları, Tuğ və Azıx kəndinə baş çəkmələri ilə bağlı da məlumat verilir.

Portal öz səhifəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində Füzuli və Xocavənd rayonlarına səfərlə bağlı videogörüntüləri də paylaşıb.



# Misir nəşri Prezident İlham Əliyevin işğaldan azad edilmiş Hadrut qəsəbəsinə səfərindən yazıb

**Misirin nüfuzlu "Əl Masr Əl Yom" nəşrində Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Xocavənd rayonuna səfəri zamanı Hadrut qəsəbəsində söylədiyi fikirlərlə bağlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Prezidenti: Ermənistan rəhbərliyi nədən öz xalqını aldadıb?" sərlövhəli məqalənin müəllifi Xalid əs-Şəmi dövlətimizin başçısının Hadrut qəsəbəsində Azərbaycanın dövlət bayrağını qaldırdığını qeyd edərək yazıb: "Prezident İlham Əliyev qeyd edib ki, 44 günlük müharibə zamanı dinc erməni əhalisi arasında çox cüzi itkilər olub. Çünki Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmayıb. Azərbaycan Prezidenti bəyan edib ki, ermənilərdən fərqli olaraq, azərbaycanlılar ancaq hərbi birləşmələrə qarşı döyüşüb və həlak olan erməni mülki əhalisinin əksəriyyəti də hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər olub".

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti Hadrutun Azərbaycan Ordusunun nəzarətinə keçdiyi zaman Ermənistan rəhbərliyi öz xalqını aldadaraq bu qəsəbənin guya ermənilərin əlində olduğu barədə yalan informasiya yayır, öz xalqını aldadırdı. Məhz bu qəsəbənin ələ keçirilməsi Şuşanın işğaldan azad edilməsi üçün önəmli idi. Prezident İlham Əliyev Hadrut əməliyyatının dünyanın hərb elmində xüsusi yer tutacağını vurğulayıb.

# YAP Veteranlar Şurasının ilk iclası keçirilib

**Martın 18-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının ilk iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, iclasda çıxış edən YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin VII qurultaydakı çıxışından irəli gələn vəzifələrdən bəhs edib, bu vəzifələrin layiqincə icra edilməsində Veteranlar Şurasının üzvlərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.**






YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov YAP Veteranlar Şurasının Əsasnaməsinin yaradılmasının, partiyanın yeni Proqramına dair təklif və tövsiyələrin işlənib hazırlanmasının qarşıda duran əsas vəzifələrdən biri olduğunu diqqətə çatdırıb. Tahir Budaqov daha sonra Veteranlar Şurasının üzvlərini qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək, göstərilən yüksək etimada görə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə təşəkkürünü bildirib. YAP-ın VII qurultayında Veteranlar Şurasının yaradılması haqqında qəbul edilmiş qərarı təqdirəlayiq hal hesab edən A.Rəhimzadənin sözlərinə görə, bu qurumun əsas vəzifələrindən biri yaşlı nəsil ilə gənclər arasında əlaqələrin gücləndirilməsidir: "Bizlər 1990-cı illərin əvvəllərində respublikada mövcud olan proseslərin iştirakçıları olmuşuq. O dövrdə respublikada xaos, qeyr-sabitlik hökm sürürdü. Bu vəziyyətdən istifadə edən Ermənistan torpaqlarımızın bir hissəsini işğal etdi. Belə bir şəraitdə sağlam düşüncəli insanlar, ziyalılar dövlətimizi və xalqımızı düşdüyü bu ağır vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyevin xilas edə biləcəyini düşünürdülər. Yeni Azərbaycan Partiyası məhz belə bir şəraitdə yaradıldı. Bütün bu tariximizi isə biz gənc nəslə olduğu kimi çatdırmalıyıq".

YAP Veteranlar Şurasını sədri bu gün Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti sayəsində xalqımızın qələbə sevincini yaşadığını qeyd edib, bu uğurların davamlı olması üçün hər birimizin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

İclasda daha sonra YAP Veteranlar Şurasının Əsasnaməsinin hazırlanması əlaqədar işçi qrupun yaradılması haqqında qərar qəbul olunub. Həmçinin, Yeni Azərbaycan Partiyasının yeni Proqramının hazırlanmasında təklif və tövsiyələrin irəli sürülməsi, eləcə də Veteranlar Şurasının iş planının hazırlanması ilə əlaqədar təkliflər müzakirə olunub. Veteranlar Şurasının üzvlərindən Xeyrəddin Qoca, Südeyif İmamverdiyev, Misir Mərdanov, Şahlar Əsgərov, Tahir Məmmədov, Əli Həsənov və Ədilə Abbasova cıxış edərək müzakirə olunan məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

***Ceyhun Rasimoğlu***

# Bosniya və Herseqovinanın məşhur telekanalı Qarabağ müharibəsi ilə bağlı reportaj yayımlayıb




***Bosniya və Herseqovinanın məşhur "Okanal" telekanalı (https://okanal.oslobodjenje.ba/) Qarabağ müharibəsi ilə bağlı reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, telekanalın komandası Qafqazın Xirosiması adlanan Azərbaycanın Ağdam şəhərini ziyarət edib.***

Jurnalistlər Andi Mioç və Mirza Ajemoviçin reportajında Qarabağdakı müharibənin üç aydan bir az əvvəl sona çatdığı qeyd edilir. Bildirilir ki, Bakıdan 350 kilometr məsafədə yerləşən şəhərdə demək olar ki, yalnız xarabalıqlar və evlərin çılpaq divarları qalıb. Cümə məscidi istisnadır. 1990-cı illərdə Qarabağdakı müharibədən əvvəl burada 40 minə yaxın əhali yaşayırdı. 1993-cü ildə Ağdam erməni separatçı qüvvələri tərəfindən işğal edildi, onlar bütün əhalini şəhəri tərk etməyə məcbur etdilər. Geri qayıtmaq cəhdlərinin qarşısını almaq üçün şəhərin böyük hissəsi məhv edildi.

Jurnalistlər qeyd edirlər ki, 30 illik işğaldan sonra Azərbaycan 1990-cı illərdə işğal olunmuş digər ərazilərin əksər hissəsi ilə bərabər Ağdamı da geri qaytardı. Müharibə 2020-ci il sentyabr ayının sonunda yenidən başladı və Azərbaycanın 44 günlük uğurlu hücumu nəticəsində sülh bərqərar oldu - noyabr ayında Moskvanın vasitəçiliyi ilə razılaşma əldə edildi, ona uyğun olaraq ermənilər ərazilərdən geri çəkildilər.

Jurnalistlər, həmçinin reportajlarında ziyarət etdikləri Zəngilan və Cəbrayıldan bəhs ediblər. Bir vaxtlar həyatla dolu və böyük turizm perspektivləri olan bu yerlər indi xarabalığa çevrilib.

Zəngilan şəhərindəki xarabalıqlar demək olar ki, bir vaxtlar 45 min əhalinin yaşadığı şəhərdən yeganə qalan xatirədir. 1990-cı illərdəki müharibə zamanı və erməni işğalından sonra əhalinin hamısı doğma yurdlarını tərk etmək məcburiyyətində qaldı.

"Biz Cəbrayıl rayonunu da ziyarət etdik. Bu, o dövrün Azərbaycan Respublikasının ən məşhur turizm yerlərindən biri idi. Bu rayon da 1993-cü ildə erməni qoşunları tərəfindən yerləyeksan edilmişdi. Azərbaycan demək olar ki, işğal edilmiş ərazilərin hamısını qaytarandan sonra həmin ərazilər minalardan təmizlənməyə başladı. Bu, əhalinin geri dönə bilməsi üçün edilir", - deyə jurnalistlər qeyd ediblər.

Reportajda, həmçinin Xocalı soyqırımı, erməni işğalının ağır nəticələri, son müharibə zamanı ermənilərin dinc Azərbaycan şəhərlərini, o cümlədən cəbhə xəttindən uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni raket atəşinə məruz qoymasından bəhs edilir.

# Vüqar Rəhimzadə: “ABŞ Azərbaycanı güclü, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verən ölkə kimi qiymətləndirir”



**“Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipi əsasında əlaqələr quran Azərbaycan Qərb ölkələri ilə əməkdaşlığa xüsusi önəm verir, münasibətlərin yeni prioritetlər əsasında inkişafına maraq göstərir. Bu baxımdan Azərbaycan-ABŞ münasibətləri xüsusi qeyd edilməlidir. ABŞ Prezidenti Co Baydenin Novruz bayramı münasibətilə dövlətimizin başçısı İlham Əliyevə təbrik məktubunda əksini tapan fikirlər iki ölkə arasında əlaqələrin bugünkü səviyyəsinə və perspektivlərə işıq salır. Məktubda da qeyd olunduğu kimi, bu yenilənmə çağı əməkdaşlığımızın və sülhə sadiqliyimizin bir daha vurğulanması üçün fürsətdir.”**

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, regional inkişafın aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatında mühüm rolu olan Azərbaycan daim beynəlxalq aləmin diqqətində olub: “Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın iqtisadi və siyasi həyatında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilən, bugünkü reallıqlara yol açan, ulu öndər Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi”nin imzalanmasına və icrasına ABŞ-ın dəstəyini daim yüksək dəyərləndirir. Regional çərçivəni aşan əməkdaşlığın coğrafiyasının genişlənməsi Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi artan nüfuzunun göstəricisidir. Artıq çoxtərəfli əməkdaşlığın başlanğıcı olan Cənub Qaz Dəhlizinin icrası uğurla başa çatıb. ABŞ Administrasiyası aydın görür ki, güclü və inkişaf edən Azərbaycan həm də Cənubi Qafqaz-Xəzər dənizi regionunda sülhün və sabitliyin, Avropanın enerji təhlükəsizliyinin təminatında önəmli rol oynayan enerji layihələrinin reallaşdırılması və dayanıqlılığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın liderliyi ilə həyata keçirilmiş Cənub Qaz Dəhlizi layihəsi Avropanın enerji təhlükəsizliyinə, enerji mənbələrinin şaxələndirilməsinə və bütün iştirakçı tərəflərə fayda gətirən layihədir. ABŞ Prezidenti təbrik məktubunda bu məqamı xüsusi qeyd edir ki, iqtisadiyyatınızın şaxələndirilməsi və Xəzər dənizində enerji imkanlarının inkişafı ilə bağlı səylərinizi dəstəkləyirik. Eyni zamanda, məktubda bu fikir də əksini tapır ki, Amerika Birləşmiş Ştatları Azərbaycanla iqtisadi əməkdaşlıq üçün yeni imkanları nəzərdən keçirmək arzusundadır.”

Baş redaktor bildirib ki, ABŞ-Azərbaycan münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayan addımlardan biri də 2001-ci ildə Birləşmiş Ştatlarda törədilən terror aktından sonra bu supergücün xarici siyasətində baş verən dəyişikliklər əsasında 1992-ci ildə Azərbaycana qarşı tətbiq edilən “Azadlığı Müdafiə Aktı”na 907-ci düzəlişin ədalətsizliyinin etirafı və fəaliyyətinin birillik dondurulması barədə qərarın qəbul edilməsidir: “Baxmayaraq ki, 2001-ci ildən ötən 20 ildə onun birdəfəlik ləğvi müşkülə çevrilib, amma hər il qərarın icrasının dondurulması ilə bağlı qəbul olunan qərar yenidən təsdiqlənir. Məlum olduğu kimi, ABŞ ermənilərin və erməni diasporunun daha güclü olduğu ölkələr sırasındandır. Şübhəsiz, ABŞ Konqresinin belə bir əsassız qərarı qəbul etməsində də erməni diasporunun rolu az olmamışdır. Lakin bugünümüzün reallıqları tamamilə başqa bir mənzərəni təqdim edir. Azərbaycan dünyanın yeni xarici siyasətinin müzakirə edilməsi üçün ideal məkan kimi qəbul olunur. Bu, dövlətimizin düşünülmüş və məqsədyönlü, eyni zamanda, beynəlxalq hüquqa əsaslanan xarici siyasətinin açıq və çoxşaxəli olmasından irəli gəlir.”

V.Rəhimzadə diqqəti Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı Zəfərə yönəldərək bildirib ki, rəsmi Bakı daim münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın mövqeyinə önəm verib: “30 ilə yaxın müddətdə Minsk qrupunun həmsədrlərinin Ermənistana dəstək funksiyasını yerinə yetirmələri, mandatlarının tələblərinin əksinə olaraq neytrallığı qorumamaları münaqişənin həlli prosesinin uzanmasına və sonda Azərbaycan xalqının səbir kasasının dolmasına səbəb oldu. Dövlətimizin başçısı İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində münaqişə həllini tapdı, ərazi bütövlüyümüz bərpa olundu, ölkəmizin həyatında yeni dövr başladı. Amerika Prezidenti məktubunda “Mənim administrasiyam təhlükəsizliklə bağlı ümumi narahatlıqlar və regional barışıq məsələlərinin həlli istiqamətində Azərbaycanla birgə çalışacaqdır” fikirləri ilə ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin başlandığına işarə edir.”

“Ümumilikdə Prezident Co Baydenin təbrik məktubu ABŞ-ın yeni Adminstrasiyasının Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyevlə bundan sonra da birgə çalışmaqda maraqlı olduğunu, Amerika -Azərbaycan əlaqələrinin strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə yüksəldiyini, dostluq və tərəfdaşlıq xarakteri daşıdığını göstərir” söyləyən V.Rəhimzadə qeyd edib ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində tarixi Qələbəsi regionda və dünyada yeni reallıqlar yaradıb: “ABŞ yeni reallığı görür və bu reallıqlar çərçivəsində Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına çalışacağını bəyan edir. Azərbaycanla ABŞ regional təhlükəsizlik məsələləri üzrə tərəfdaşdırlar. ABŞ Azərbaycanı güclü, dinamik inkişaf edən, sabitliyə və təhlükəsizliyə mühüm töhfə verən, qlobal müstəvidə önəmli təşəbbüslərlə çıxış edən və qarşıya çıxan problemlərin həllinə əməli dəstək verən ölkə kimi qiymətləndirir. Ölkəmiz sabitləşdirici faktor kimi mövqeyini möhkəmləndirir. COVID-19 pandemiyasına qarşı mübarizədə bir-birinə əks qütbləri bir araya gətirən Azərbaycan qlobal problemlərin həllində qlobal birlik, həmrəylik çağırışını etdi. Dövlətimizin başçısı İlham Əliyev prioritetləri açıqlayarkən xarici siyasətdə dəyişiklik olmayacağını bildirməklə bir daha Azərbaycanın dəyişməz, beynəlxalq hüquqa əsaslanan mövqeyini dünyaya çatdırır. Dövlətinin, xalqının gələcəyini düşünən, daim irəliyə baxan, ikitərəfli və çoxtərəfli münasibətlərdə ədalət prinsipini qoruyan, ən əsası siyasətində müstəqil olan Liderə nəinki ölkəsi daxilində, beynəlxalq miqyasda inam və etimad böyük olacaq. Birləşmiş Ştatlar Prezidentinin ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələyə yol açan məktubunda əksini tapan fikirlər də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, qalib ölkənin qalib Lideri İlham Əliyevə olan yüksək münasibətinin aydın ifadəsidir.”

## Ramin Məmmədov: ABŞ Azərbaycanı davamlı inkişafda olan tərəfdaş kimi qəbul edir

ABŞ Prezidenti Co Baydenin Novruz bayramı münasibətilə dövlətimizin başçısı İlham Əliyevə ünvanladığı təbrik məktubunda Birləşmiş Ştatların Azərbaycanla əməkdaşlığı bundan sonrakı dövrdə də davam etdirməyə sadiq olduğu ifadə edilir. ABŞ-ın yeni Administrasiyasının Azərbaycana olan etimadı ekspertlər tərəfindən yüksək qiymətləndirilir.



Milli Məclisin deputatı Ramin Məmmədov mövzu ilə bağlı “İki sahil”ə açıqlamasında bildirdi ki, ümumilikdə, Azərbaycanla ABŞ arasındakı münasibətləri xarakterizə edərkən, onlarla bağlı hər hansı bir təhlil apararkən çox aydın bir mənzərə qarşımıza çıxır: “Azərbaycanın xarici siyasət prioritetləri arasında müstəqillik dövrünü əhatə edən ötən 30 il ərzində ABŞ-la münasibətlər daim mühüm yer tutub. Bu münasibətlər həm ikitərəfli, eyni zamanda, çoxtərəfli əməkdaşlığın müxtəlif sferalarını əhatə etməklə deyərdim ki, hər iki dövlətin milli maraqlarına cavab verməkdədir. ABŞ-la münasibətlərin normal səviyyəyə qaldırılması işində əlbəttə ki, ölkəmizin demokratik dünyaya inteqrasiyası istiqamətində atdığı davamlı addımlar mühüm rol oynamışdır. Bu, çox önəmli bir məqamdır. Digər tərəfdən, ölkəmizin Avropanın enerji təchizatı sahəsində mühüm rolu da Azərbaycan- ABŞ münasibətlərini dərinləşdirən faktorlarından biridir.”

R.Məmmədov qeyd etdi ki, digər bir məsələ - ölkələr arasında münasibətlərin mühüm istiqamətlərindən biri isə qlobal təhlükəsizlik və beynəlxalq terrorizmə qarşı mübarizədir: “Məlumdur ki, Azərbaycan milli maraqların və bütün sivil dünyanı təhdid edən terrorizmlə mübarizə işində ABŞ-la yaxından işbirliyinə malik olan dövlətlərdən biridir. Bu əməkdaşlıq hazırda da davam etdirilməkdədir. Ümumilikdə, əgər münasibətlərə sadəcə olaraq regional əməkdaşlıq deyil, qlobal əməkdaşlıq kontekstində baxdıqda aydın şəkildə görünür ki, Azərbaycanın bu illər ərzində həyata keçirdiyi davamlı və kifayət qədər çevik, dinamik xarici siyasəti nəticəsində etibarlı tərəfdaş olması, gündən-günə daha da güclənməsi, daxili və xarici siyasətinin daim qlobal çağırışların tələbləri çərçivəsində yeni meyarlarla zənginləşdirilməsi istiqamətindəki səyləri ABŞ tərəfindən də birmənalı şəkildə müsbət qarşılanır.”

R.Məmmədovun sözlərinə görə, həmçinin Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi regionu qarşıdurma deyil, tam tərsinə, yəni əməkdaşlıq məkanına çevirmək istiqamətində atdığı mühüm hərbi-siyasi addımlar ABŞ tərəfindən də təqdir olunur, bu dövlətin diqqətindən qaçmır: “Bu reallığı müxtəlif dövrlərdə ifadə edən ABŞ-ın dövlət xadimləri, siyasətçiləri və ekspertləri Azərbaycanın Amerika, hətta inkişaf etmiş Avropa dövlətləri üçün güclü bir müttəfiq olduğunu qeyd edirlər. Bu kontekstdə də düşünürəm ki, ABŞ prezidenti Co Baydenin dövlətimizin başçısı İlham Əliyevə göndərdiyi təbrik məktubu məhz bu prizmadan səciyyələndirilməlidir, qiymətləndirilməlidir. Bu, bir daha onu göstərir ki, istənilən administrasiya Azərbaycanı bölgədə dayanıqlı və davamlı inkişafda olan tərəfdaş kimi qəbul edir. ABŞ rəsmiləri bu tərəfdaşlıqdan irəli gələn məsələləri həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə müzakirə etməyə hazır olduqlarını açıq şəkildə bəyan edirlər.”

***Cavid Əkbərov***

# “Prezident əfv Sərəncamı ilə yüzlərlə ailəyə bayram sevinci bəxş etdi”

“Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün imzalanan “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam dövlətimizin başçısının hümanizm siyasətinin, vətəndaş amilinin hər zaman öndə dayanmasının növbəti təzahürüdür. Zamanla görürük ki, istər Novruz bayramı ərəfəsində, istər Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində, istərsə də digər əlamətdar günlər ərəfəsində cənab Prezidentimiz tərəfindən bu kimi əfv Sərəncamları imzalanır. Eyni zamanda Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən amnistiya təşəbbüsü ilə çıxış edilməsi xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirilib.”



Bu fikirləri “İki sahil”ə açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, partiyanın Ağdaş rayon təşkilatının sədri Cavid Osmanov bildirib.

Milli Məclisin deputatı qeyd edib ki, bu gün imzalanan Sərəncama uyğun olaraq xeyli sayda insan azadlığa buraxılıb, məhbusların müəyyən hissəsinin cəzası xeyli azaldılıb: “Cənab İlham Əliyev tərəfindən imzalanan Sərəncam yüzlərlə ailəyə bayram sevinci bəxş etdi. Burada diqqət çəkən məqamlardan biri də odur ki, siyasi mənsubiyyətindən asılı olmayaraq məhkum olan şəxslər də əfv edilib. Sərəncam xalqımız tərəfindən birmənalı olaraq yüksək qiymətləndirilir. Onu da qeyd edim ki, ümumilikdə müstəqillik dövründə Azərbaycanda 67 əfv Sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib. Bu gün imzalanan Sərəncama uyğun olaraq azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər.”

C.Osmanov əmin olduğunu vurğulayıb ki, əfv olunan şəxslər də dövlət başçısının bu humanist addımından düzgün nəticə çıxaracaqlar: “Dövlət başçısı tərəfindən əfv Sərəncamının imzalanması hər zaman olduğu kimi indi də cəmiyyətdə boyük rəğbətlə qarşılanıb. Xalqımızın milli dəyərlərindən biri də odur ki, insanlar əfv olunsun, həmrəylik nümayiş olunsun. Bu Sərəncam humanizm siyasətinin əyani sübutudur. Bu, bir daha onu sübut edir ki, Azərbaycan xalqının öz Prezidentinə inamı sarsılmazdır və bu inamı heç kim sarsıda bilməz.”

***Orxan Vahidoğlu***

# Novruz bazarı: qiymətlər necədir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Ilin ərzaq məhsulu cəhətdən ən qıt mövsümü olduğundan, Azərbaycanın istehlak bazarında qiymət artımı müşahidə olunur. Bahalaşma və inflyasiya ilə bağlı əhalinin narahatlığı həm deputatlar, həm də ekspertlər tərəfindən gündəmə gətirilir. Hətta ötən gün Milli Məclisin iclasında süni bahalaşma problemi baş nazir Əli Əsədovun da diqqətinə çatdırılıb. Baş nazir bildirib ki, hökumət məsələni daim diqqətdə saxlayır. Bəs bazarlarda ərzaq mağazalarında müşahidə olunan bahalaşmanın obyektiv və subyektiv səbəbləri nədir? Hansı məhsullar və niyə bahalaşıb? Ucuzlaşan məhsullar hansılardır? Ümumiyyətlə, bazarlarda qiymət məsələsinə nəzarət necə olmalıdır? Bu yazımızda həmin məsələlərə toxunacağıq.**

Əlbəttə, müxtəlif amillərin təsiri ilə, müəyyən məhsullarda bahalaşma müşahidə olunur, amma bu, hələ ki, cüzidir və bütün məhsulları əhatə etmir. Həm də bunu süni bahalaşma adlandırmaq olmaz, tam təbiidir, enerji daşıyıcıları və suyun qiyməti bahalaşıbsa, belə də olmalıdır. Çünki məhsulların istehsal və maya dəyəri artıb. Bu halda istehsalçıları qiyməti bahalaşdırmamağa məcbur etməyin heç bir yolu yoxdur- heç kim məhsulunu maya dəyərindən aşağı satmaz- bundansa "dükanı" bağlayıb gedər.

Sadəcə, bu sahədə bir nəzarət olmalıdır ki, qiymətlər monopolist səbəblərdən, ya da yaranmış vəziyyətdən sui-istifadə səbəbindən artmasın. Tutaq ki, məhsulun maya dəyəri 10 faiz artıbsa, qiyməti də 10 faiz artmalıdır, daha 30-50 faiz yox. Dövlət bunu tənzimləmək üçün kiçik və orta sahibkarlara müəyyən güzəştlər edə bilər, monopoliyanın qarşısını tam ala bilər və s.

Əlbəttə, hazırkı dövrdə qiymətləri tənzimləyən səbəblərdən biri də bazxarın tələb-təklif məsələsidir. Bazarda qıt olan məhsullar bahalaşır, bol olanlar ucuzlaşır. Buna görə də dövlət yerli istehsalı olmayan və ya çox az olan məhsullar üzrə gömrük rüsumlarını azalda bilər ki, həmin məhsullara tələb təklifi üstələməsin. Bundan başqa, yerli istehsalı dəstəkləmək üçün lazımi addımlar atıla biər ki, yerli məhsul istehsalı çoxalsın. Son nəticədə bazarda bolluq və ucuzluq ola bilər

Lakin qeyd etməliyik ki, hazırda təkcə bəzi məhsulların bahalaşması yox, həm də bəzi məhsulların ucuzlaşması da müşahidə olunur. Məsələn, müşahidələrimizə əsasən deyə bilərik ki, kərə və zeytun yağlarında və ətdə 1 manat ucuzlaşma var. Makaron və düyüdə, paxlalı məhsullarda, konserv məhsullarında, süd məhsullarında, ədviyyatlarda bahalaşma yoxdur, əksinə bəzilərində 10 faiz ucuzlaşma var. Balıq və toyuğun qiyməti eyni qalıb. Bu il qoz, fındıq, badam, şabalıd da ucuzdur- 3-6 manat arasında. Baxmayaraq ki, bayramqabağıdır və tələbat çoxdur.

Maraqlıdır ki, ucuzlaşan və ya bahalaşmayan məhsullar, əsasən, xaricdən idxal olunan məhsullardır. Lakin yerli istehsal meyvə-tərəvəz bahadır. 2 manatdan aşağı meyvə, 1 manatdan aşağı tərəvəz yoxdur. Meyvələrdən alma, korolyok, nar, armud, heyva, naringi, tərəvəzlərdən kələm, kök, turp, balqabaq, brokoli, kartof, soğan, kənd yumurtası kimi məhsullar 1-2 aya qabaq daha ucuz idi, indi 50 fazi ətrafında bahalaşma var. Meyvələrdən yalnız kivi bir qədər ucuzlaşıb, tərəvəzlərdən isə gül kələmi.

Yerli məhsullarda bahalaşma təkcə kənd təsərrüfatı məhsullarında deyil, həm emal sənayesi qida məmulatlarındadır. Belə ki, zeytun istisna olmaqla bitki yağları, meyvə və tərəvəz konservləri, bəzi süd məhsulları, kolbasa-sosiska məmulatları və s. bahalaşıb.

Doğrusu, yerli məhsulların bahalaşmasını, idxal məhsulların ucuzlaşmasının səbəbini tam aydınlaşdırmaq çətindir, bu aşkar paradoksdur. Güman edirik ki, bizimlə qonşu ölkələrin hamısında milli valyutaların ucuzlaşması, manatın isə sabit qalmasının da buna təsiri var. Belə ki, həmin məhsullar bizim idxalçılar tərəfindən o ölkələrdə əvvəlkindən daha ucuz alınır.

Buna baxmayaraq yerli istehsal məhsular heç bir halda xarici məhsullardan baha ola bilməz. Çünki nə qədər ucuz alınsa da, idxal məhsulların dəyərinə gömrük rüsumları, vergi ödənişləri, nəqliyyat xərcləri və s əlavə olunur. Kiçik fermerlərin isə belə ödənişləri yoxdur. Üstəlik, pandemiya ilə bağlı ölkədən məhsul ixracı da azalıb. Bu halda yerli məhsullar bazarda bol olmalı və qiyməti ucuzlaşmalı idi. Görünür ki, bu il daha az adam məhsul əkib becərib. Ya da ki, fermerlər paytaxt və digər iri şəhərlərin bazarlarına rahat çıxış əldə edə bilmirlər.

Faktiki olaraq, bazar-dükanda yerli meyvə-təvəz məhsulları azlıq təşkil edir. Böyük əksəriyyəti xaricdən gətirilənlərdir ki, onların da çoxu genetic modifikasiya olunmuş məhsullardır. Bazar dükanda yerli kartof tapmaq olmur, tapanda da 2,5 manatdır kiloqramı. Bütün ölkəni texniki sort Pakistan, İran kartofu bürüyüb ki, bu GMO məhsulun da kilosu 1 manatdan aşağı deyil. Soğan da bahadır- 70 qəpikdən aşağı düşmür. Halbuki, ölkəmizdə kartof və soğanın böyük istehsal həcmi var. Yerli məhsul hara yoxa çıxıb maraqlıdır.

Maraqlıdır ki, yerli meyvə-tərəvəz sahələrdə çox ucuz alınır, amma paytaxtda bazar-dükanda 3 qat baha satılır. Nəticədə, istehsalçı uduzur, istehlakçı uduzur, qazanan yalnız dəllallar olur.

Əməkdaşlarımızın apardığı müşahidələr zamanı aydın olub ki, KTN-in təşkil etdiyi yarmarkalarda məhsullar bazar və mağazalardan xeyli ucuzdur, demək bahalıq ancaq dəllalların fəaliyəti ilə bağlıdır. Uzun illərdir ki, təklif edirik ki, ölkədə məhsul bolluğu və ucuzluq yaratmaq üçün sadə yol var- KTN daimi yarmarkalar təşkil etməli və məhsul istehsal edən kəndliləri ora maneəsiz və pulsuz buraxmalıdır. Hazırda bazarlarda yerləri alverçilər tutub, yarmarkalarda isə belə deyil. Əgər mütəmadi olaraq və ya daimi olaraq belə yarmarkalar fəaliyyət göstərsə, ucuzluq və bolluq olar. Çünki bu yarmarkalara daha çox məhsul istehsal edən fermerlər, öz bağının məhsulunu gətirən kəndlilər buraxılır. Məhsulunu rahat və normal qiymətə sata bilən kəndli daha çox əkəcək becərəcək. Demək, həmin fermerlərin məhsul əkib-becərmək, heyvandarlıqla məşğul olmaq imkanları və istəkləri artıracaq, çünki məhsullarını rahat və normal qiymətə satıb gəlir əldə edəcəklər.



## İdxal məhsullarında ucuzlaşma, yerli məhsullarda bahalaşma müşahidə olunur: bu, nə ilə bağlıdır?

ARAŞDIRMA

Qlobal iqtisadi böhranlar sübut edir ki, təkcə neft gəlirlərinə ümid etmək olmaz, turizmin də etibarlı olmadığı üzə çıxdı. Ağır sənaye və maşınqayırma, yüksək texnologiyaların istehsalı sahələri də ölkəmizə uyğun deyil. Bizdə ən böyük poptensial və perspektiv yüngül sənaye, aqrar-sənaye sahələrindədir. Aqrar sahənin inkişafı o qədər də böyük vəsait tələb etmir, sadəcə müəyyən stimullaşdırıcı tədbirlər görülməli, praktik əngəllər, monopoliya halları aradan qaldırılmalıdır.

Hazırda banklar, sığorta şirkətləri bu sahənin inkişafına maraq göstərmirlər. Burada riskin yüksək olduğu bildirilir. Əslində, ən az risk aqrar sahədədir. Şərait yaradılarsa, həm investorlar bu sahəyə investisiya qoyacaq, həm də kiçik sahibkarlar, fermerlər bu işdə maraqlı olacaqlar.

Azərbaycanın aqrar sahədə həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialı genişdir. Bu sahə inkişaf edərsə, istənilən uzunmüddətli böhran zamanı ölkəni ərzaqla təmin etmək olar. Belə olan halda idxaldan asılılığımız sıfıra düşər. Dövlət tərəfindən milyardlarla vəsaitin ayrılır, sadəcə həmin vasitələrin effektiv idarə edilməsinə ehtiyac var. Bu sahədə kompleks proqramlar hazırlanmalı, vergi güzəştləri tətbiq edilməlidir. İlkin növbədə kiçik və orta sahibkarlara dəstək verilməlidir.

Rusiya, ABŞ, Belarus, Türkiyə, həmçinin, əksər Avropa ölkələrində dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun hətta bazar qiymətindən də yüksək qiymətə alınacağı haqda əvvəlcədən müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, möhtəkirliyin aradan qaldırılmasını və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə böhranın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Sonda qeyd edək ki, Azərbaycanda aqrar sektora dövlətin böyük dəstəyi var və bu sahənin inkişafı üçün müsbət işlər görülüb, ciddi nəticələr də əldə edilib. Amma yenə də potensialdan tam istifadə edilməyib. Əsas məsələ, bazarlardakı alverçi qrupunu uzaqlaşdırmaq, bazarlara ancaq öz məhsulunu gətirən fermerləri buraxmaq, kəndli təsərrüfatlarına güzəştli və uzunmüddətli kreditləri artırmaq və sahibkarların işinə yersiz müdaxilələri ləğv etməkdir.

Yeri gəlmişkən, dünən ölkə prezidentinin fərmanı ilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 9 mart tarixli 279-VIQD nömrəli Qanunu təsdiq edilib. Fərmanda nəzərdə tutulur ki, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, sahibkarların maraqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini 8 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Bu il aqrar sektorda islahatların davam edəcəyi, dövlət dəstəyinin artırılacağı gözlənilir. Əgər bu tədbirlər effekltiv şəkildə həyata keçirilsə, bunun ölkəmizin ərzaq təhlükəsizliyinin tam təmin etməsi ilə bərabər, həm də əhalinin sosial rifahının artmasına müsbət təsiri müşahidə olunar.

**Elçin Bayramlı**

# Şəhid ailələri və qazilərə dövlətin yüksək qayğısı niyə radikal xislətli xainləri, siyasətbazları narahat edir?



Ölkəmizdə şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində yüksək qayğı göstərilir. Eyni zamanda, xalqımız bütün şəhidlərin, o cümlədən 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olanların əziz xatirəsini daim uca tutur, sağlamlığını itirmiş qazilərimizə böyük hörmətlə yanaşır. Bütövlükdə, cəmiyyətimiz bu kateqoriyadan olan insanlara diqqət göstərilməsini özünün mənəvi borcu hesab edir. Çünki torpaqlarımız məhz bu igidlərimiz sayəsində düşmən tapdağından azad olunub. Amma bunların fonunda ölkəmizdəki radikal müxalifətin tutduğu mövqe qəbulolunmazdır. Çünki radikallar, "beşinci kolon"un təmsilçiləri bu məsələdə də qarayaxma kampaniyası aparır, cəmiyyəti aldatmağla, dövlətin bu cür addımlarına kölgə salmağa çalışırlar. Xüsusilə, burada AXCP sədri Əli Kərimli canfəşanlıq edir. Belə ki, o, özünün "Facebook" səhifəsində guya şəhid ailələrinə və qazilərə heç bir qayğı göstərilmədiyini iddia edir.

"Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev məsələ ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, Əli Kərimlinin Azərbaycan xalqı qarşısındakı günahları böyükdür: "Nəzərə alsaq ki, AXCP sədri Əli Kərimli daim şəhid ailələri üzərindən özünə saxta xallar toplamağa çalışıb, bu zaman onun hazırda da qazilərdən və şəhid ailələrindən öz çirkin məqsədləri üçün istifadə etməsinə təəccüblənməyə dəyməz".

Ekspert onu da qeyd edib ki, istər bu gün, istərsə də hər zaman ölkəmizdə dövlət tərəfindən şəhid ailələri və qazilərə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir və bu reallıq radikal xislətli xainləri, siyasətbazları narahat edir, təlaşlandırır: "Xüsusilə, dağıdıcı müxalifətin saxtakar liderləri demək olar ki, əllərinə düşən hər fürsətdə öz qarayaxma kampaniyalarını ortaya atmaqla sağlam düşüncəli ictimai rəy arasında çaşqınlıq yaratmağa səy göstərirlər. "Beşinci kolon" adlandırılanların dövlətin bu istiqamətdə apardığı siyasətə özlərinə məxsus don geyindirmək cəhdləri insanlarımız tərəfindən ciddiyə alınmır. Yəni, bu gün xarici düşmənlərin dəyirmanına su tökən həmin adamlar həm də özlərinin fəaliyyətlərində daxili düşmən obrazını yaratmış olurlar. Deyərdim ki, daxili düşmən daha təhlükəlidir və belələrinə qarşı mübarizə aparmaq dövlətini, Vətənini sevən hər bir vətəndaşın borcudur. Belə ki, ortada dövlət maraqları dayanıb".

"Baxın, özünü AXCP-nin sədri adlandıran Əli Kərimli bugünə qədər nə qədər təxribatçı əməllərə gedib, özü ilə birlikdə onlarla gənclərin həyatlarını zəhərləyib" deyən siyasi ekspert daha bir fakta toxunub: "Biz dəfələrlə 20 Yanvar, Xocalı şəhidlərinin anım mərasimlərində belə siyasi saxtakarların təxribatçı əməllərinin şahidləri olmuşuq. Onlar ən həssas məqamlarda belə öz kirli niyyətlərini icra etməyə çalışırlar, xalq isə bundan hiddətlənir. Çünki xalq onlara deyil, dövlətinə, dövlət başçısına, 44 günlük Vətən müharibəsində düşmənə göz açmağa imkan verməyən Müzəffər Ali Baş Komandanına, Ordusuna inanır, güvənir, etimad göstərir. Demək olar ki, bir neçə gündən bir bizlər şəhid ailələrinə, qazilərimizə göstərilən dövlət qayğısı barədə məlumatları görürük, oxuyuruq və həmin məqamın davamlı xarakter alması bizləri yalnız qürurlandıra bilər. Əli Kərimli kimilər isə bundan təlaş keçirirlər, çox yaxşı bilirlər ki, 29 ildir xəyanətləri, satqınlıqları üzündən əllərindən verdikləri iqtidarı bir daha geri qaytara bilməyəcəklər. Onlar bunu çox gözəl anlayırlar və hər dəfə bax, bu cür qeyri-ciddi fikirləri ilə suyu bulandırmağa çalışırlar. Göründüyü kimi, alınmır, bundan sonra da alınmayacaq".

"İstər "Milli Şura"nın, istərsə də AXCP-nin və bunlara bənzər təşkilatların fəaliyyətləri yalnız sosial şəbəkələrə söykənir və ondan o tərəfə heç nəyə nail ola bilmirlər" deyən Bəhruz Quliyev daha bir amilə də toxunub: "Heç görün Əli Kərimli bir dəfə də olsa əlində olan maddi imkanları ilə şəhid və qazi ailələrinə dəstək göstərmək üçün təşəbbüslərdə bulunubmu? Çünki bu şəxsdə nəinki səmimiyyət, ümumiyyətlə, dövlətin ümummilli siyasətinə dəstək marağı olmayıb və yoxdur. Təkcə 44 günlük Vətən müharibəsi başlayarkən ölkəmizdə fəaliyyət göstərən bütün siyasi partiyaların birgə bəyanat imzalandığı vaxt həmin bəyanatda Əli Kərimlinin və partiyasının imzasını görməməyimiz onun haqqındakı fikirləri bütün çılpaqlığı ilə nümayiş etdirməkdədir. İndi onun və yan-yörəsinin durub qazilərimizə, şəhid ailələrimizə göstərilən dövlət qayğısına dil uzatmaları yersizdir və heç bir məntiqi də yoxdur. Ümumiyyətlə, Əli Kərimlinin Azərbaycan xalqı qarşısında günahları çox böyükdür və bir gün bütün əməllərinə görə cavab verməli olacaq".

***Mənsumə Babayeva***

# Ermәni aktivist Prezident İlham Əliyevə müraciət etdi

Erməni aktivist İşxan Verdyan Azərbaycan Prezidenti İlham Əliyevə müraciət ünvanlayıb. "Qafqazinfo".az xəbər verir ki, müraciətini feysbuk hesabı üzərindən ünvanlayan İşxan Verdyan Azərbaycan Prezidentindən Robert Koçaryan və Serj Sarksiyanın Azərbaycana ekstradisiya edilməsi üçün tədbir görməyi xahiş edib.

"Ermənistan vətəndaşı İşxan Verdyandan Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə müraciət.

Hörmətli cənab Prezident

Nəzərinizə çatdırıram ki, Robert Koçaryan və Serj Sarkisyan hazırda Ermənistan Respublikasının ərazisindədirlər. Onlar həmişəki quldur və terrorçu metodlarla hərəkət edərək dağıdıcı fəaliyyətləri ilə Azərbaycan və Ermənistana ziyan vurmağa davam edirlər. Sizdən sözügedən şəxslərin Azərbaycan Respublikasına ekstradisiyası üçün bütün zəruri tədbirləri görməyi xahiş edirəm. Hörmətlə, İşxan Verdyan, Ermənistan vətəndaşı",- deyə müraciətdə qeyd olunub.

# Aydın Quliyev: "Əfv Sərəncamı ölkəmizdə hüquq sisteminin humanist xarakter daşıdığını bir daha nümayiş etdirdi"



"Prezident İlham Əliyev tərəfindən əfv Sərəncamının imzalanması artıq ənənə halını alıb. Dövlət başçısının "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı vətəndaşlara verilən dəyərin, dövlətin humanist siyasətinin daha bir bariz nümunəsidir. Sərəncam, eyni zamanda, Azərbaycanda əfvin humanist və hüquqi institut kimi təkmilləşməkdə olduğunu göstərdi".

Bu sözləri "İki sahil"ə açıqlamasında "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

A.Quliyev bildirib ki, bu əfv Sərəncamı Azərbaycanda hüquqi cəzalandırmanın da, əfv etmənin də ciddi və konstitusion əsaslara söykəndiyini bir daha nümayiş etdirdi: "Sərəncama əsasən, əfv olunanların əhatə dairəsi kifayət qədər genişdir. Belə ki, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 475 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 98 nəferin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərin cəzası 25 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş iki nəfər cəzadan azad ediliblər. Həmçinin azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış üç nəfər cəzadan azad olunublar. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 9 nəfər və islah işləri cəzasına məhkum olunmuş 12 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum olunan 23 nəfər isə cəzadan azad ediliblər".

Baş redaktor qeyd edib ki, bütün bunlar əfv Sərəncamının müxtəlif kateqoriyadan olan məhkumların dövlətin humanist münasibəti ilə əhatə olunduğunu göstərir: "Ölkəmizin hüquq sistemində atılan heç bir addım siyasiləşmiş xarakter daşımır. Həyata keçirilən davamlı hüquqi islahatlar cəza siyasətinin humanistləşdirilməsi üçün şərtlər formalaşdırır, xüsusi təhlükəli hallar istisna olmaqla cəzanın yüngülləşdirilməsi imkanları yaradır. Bir sözlə, dövlət başçısının növbəti əvf Sərəncamı ölkəmizdə hüquq sisteminin humanist xarakter daşıdığını bir daha nümayiş etdirdi".

***Nigar Orucova***

# Metro terroruna görə ömürlük cəza alan şəxs əfv edilməyib

Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında qatarda törədilən partlayışa görə ömürlük azadlıqdan məhrum edilən şəxsin əfvə düşməsi barədə yayılan məlumat düz deyil. Belə ki, metro partlayışı ilə əlaqədar həbsdə olan şəxs Aslanov Azər Məhərrəm oğlu yox, Aslanov Azər Salman oğludur.

Sərəncama əsasən, əfvə düşən Aslanov Azər Məhərrəm oğlunun ömürlük azadlıqdan məhrumetmə cəzası 25 il müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz olunub.

1972-ci il təvəllüdlü A.Aslanov Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2001-ci il 16 iyul tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum edilib.

# Ermənilər Bakı və Minskin hərbi əməkdaşlığından narahatdırlar

## Azərbaycanın hərbi potensialını artırmaq qərarı qonşu ölkənin ictimai-siyasi rəyini qıcıqlandırır

Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda ölkəmizin hərbi potensialının bundan sonra da yüksəldiləcəyi, yeni silahların alınacağı, ümumilikdə hərbi büdcəsinin artırılacağı ilə bağlı verdiyi bəyanatı erməni ictimai-siyasi rəyində təlaşla qarşılandı. Daha dəqiq desək, Ermənistanın 44 günlük müharibədə yalnız canlı deyil, həmçinin, texnika cəhətdən də böyük itkilərə məruz qalmasının ardınca Azərbaycanın silah arsenalını gücləndirməsi qərarı onları ciddi şəkildə düşünməyə məhkum edib.

Bu arada, erməni tərəfini təlaşlandıran daha bir fakt Azərbaycanla Belarus arasında mövcud olan hərbi əməkdaşlıq münasibətlərindən doğan reallıqlardır. SİA xəbər verir ki, Müdafiə Sənayesi naziri Mədət Quliyevin Belarusun ölkəmizdəki səfiri Andrey Ravkovla görüşü erməni mediasında, həmçinin, sosial şəbəkə seqmentlərində müzakirə obektinə çevirlib.

Ermənilər: "Belə nəticə çıxarmaq olar ki, Bakıda və Minskdə Azərbaycan Prezidenti İlham Əliyevin "Hərbi arsenalı müharibədən əvvəlki həddə qədər təmin etmək" ismarışını eşidiblər"

Belə ki, belaruslu səfir həm də kadrlı zabitdir və hərbi məsələlərdə peşəkar kimi də tanınır. Məhz bu amilə diqqət çəkən ermənilər xatırladırlar ki, hərbi sənaye və müdafiə siyasəti ilə bağlı Azərbaycanın regiondakı liderliyi Ermənistanın bu sahədəki vəziyyətini dalana dirəyir. Belə ki, Belarus səfiri eyni zamanda müdafiə naziri Zakir Həsənovla da görüşlər keçirib.



"Belə nəticə çıxarmaq olar ki, Bakıda və Minskdə Azərbaycan Prezidenti İlham Əliyevin "Hərbi arsenalı müharibədən əvvəlki həddə qədər təmin etmək" ismarışını eşidiblər", deyə ermənilər yazırlar və Azərbaycanla Belarus arasındakı hərbi əməkdaşlıq barədə qeyd edirlər: "Bundan əlavə, demək olar ki, 20 il ərzində hərbi-texniki əməkdaşlıqda Azərbaycan Belarusdan bütün növ silahlardan alıb - T-72 tankları və Su-25 qırıcılarından "Polonez" raket komplekslərıə qədər. Belə düşünmək olar ki, bu son hədd deyil".

Rusiya tərəfi Bakı ilə yeni hərbi-texniki müqavilələr imzalamağa hazır olduğunu bəyan edib və Su-35, eləcə də MiQ-35 həbri təyyarələrini sata biləcəyini bildirib

Ermənilər ölkəmizin yalnız Belarusla deyil, həmçinin Rusiya ilə də hərbi əməkdaşlıq potensialının get-gedə daha da artırdığına diqqət çəkir və xatırladır ki, artıq Rusiya tərəfi Bakı ilə yeni hərbi-texniki müqavilələr imzalamağa hazır olduğunu bəyan edib və Su-35, eləcə də MiQ-35 həbri təyyarələrini sata biləcəyini bildirib.

Ermənistanın ictimai-siyasi rəyi hər iki ölkənin - Belarusun və Rusiyanın onların da təmsil olunduqları KTMT-yə üzvlüklərini xatırladaraq təbii ki, bundan qıcıqlanırlar. Lakin söz yox ki, dövlətlərarası istənilən münasibətlər müstəqildir və ermənilər nə qədər qıcıqlansalar belə, Azərbaycanın hərbi potensialını artırmaq üçün yalnız KTMT-nin aparıcı ölkələri ilə deyil, eləcə də digər hərbi sənayesi inkişaf etmiş ölkələrlə də əməkdaşlıqları davam edəcək. Çünki Bakı dünyada özünü etirbarlı və etimad göstərilən tərəfdaş qismində tanıdıb, bu xəttdəki prinsipləri ilə nüfuzunu daha da yüksəldib, əlbəttə ki, Ermənistandan kifayət qədər fərqli olaraq...

***Rövşən RƏSULOV***

# Dövlət Miqrasiya Xidmətinin çevik və səmərəli idarəçilik modeli Azərbaycanın miqrasiya sahəsində regional mərkəzə çevrilməsi üçün əlverişli şərait yaradıb

**Azərbaycan Respublikasının zəngin maddi-mədəni resursları, yerləşdiyi coğrafi məkan və strateji mövqeyi, ölkəmizdəki stabillik, tolerantlıq və davamlı iqtisadi inkişaf, həmçinin geniş turizm imkanları miqrasiya məsələlərinin daim diqqətdə saxlanılmasını və bu sahədə kompleks yanaşmanın göstərilməsini şərtləndirir. Milli təhlükəsizliyin qorunması, sosial-iqtisadi inkişafın dəstəklənməsi, insanların hərəkət azadlığının həyata keçirilməsinin asanlaşdırılması, təhlükəsiz, nizamlı və qanuni miqrasiyanı təşviq edən, miqrasiyanı innovasiya və dayanıqlı inkişafın mənbələrindən birinə çevirən idarəçiliyin formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ölkəmizin miqrasiya siyasətinin əsas istiqamətlərindəndir.**

Uğurlu miqrasiya siyasətinin əsas göstəriciləri ölkəyə gələn əcnəbilərin sayının artması, qanunsuz miqrasiya dinamikasının azalması və miqrasiya rejiminin iqtisadi inkişaf üçün əlverişli olmasıdır. Miqrasiyanın transmilli xarakteri və digər sahələrlə əlaqəsi, eləcə də dünyada, regionda və ölkəmizdə baş verən mühüm hadisələr bu sahədə yeni çağırışların yaranmasına səbəb olur.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli dövlətçilik, iqtisadi inkişaf və quruculuq strategiyasının Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində dövlətimiz möhtəşəm nailiyyətlər qazanmaqda və yeni zirvələr fəth etməkdədir. 2020-ci il dövlətimiz və xalqımız üçün müstəqillik tarixində ən şərəfli il kimi yadda qaldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri işğal olunmuş torpaqlarımızı azad etdi. Vətən müharibəsində qazanılmış bu şanlı qələbə regionda sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafı və ticarət əlaqələrinin genişləndirilməsi, o cümlədən miqrasiya sahəsi üçün yeni imkanlar yaratdı. Hazırda azad olunmuş ərazilərə Böyük Qayıdışla əlaqədar əsas prioritetlər müəyyənləşdirilir və Dövlət Miqrasiya Xidməti də işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafın dəstəklənməsi, həmin ərazilərə xarici investisiyaların cəlb olunması və miqrasiya axınlarının bu ərazilərə istiqamətləndirilməsi üçün öz fəaliyyət istiqamətlərinə uyğun olan bütün tədbirləri icra edəcəkdir.

2020-ci il həm də dünyada qlobal pandemiya elan edilən COVİD-19 koronavirusu ilə mübarizə ili kimi tarixə düşdü. COVID-19 pandemiyası digər sahələrdə olduğu kimi miqrasiya prosesləri üçün də yeni situasiya və çağırışlara səbəb oldu. Xəstəliyin daha çox insan təması ilə yayılması dünya dövlətlərini Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə almaqla müxtəlif spesifik tədbirlər görməyə, eləcə də 2020-ci ilin mart ayından etibarən milli sərhədlərini sərnişindaşıma üçün bağlamağa və digər məhdudlaşdırıcı addımlar atmağa məcbur etdi. Nəticədə, beynəlxalq və ölkədaxili yerdəyişmə kəskin azaldı və beləliklə miqrasiya COVID-19-un ən çox neqativ təsir etdiyi sahələrdən biri oldu.

Azərbaycanda ilk yoluxma faktının qeydə alındığı tarixdən daha əvvəl cənab Prezidentin Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması mövcud şəraitdə idarəetmənin və kommunikasiyanın düzgün qurulmasına, həmçinin miqrasiya idarəçiliyi sahəsində çevik qərarların qəbul olunmasına imkan yaratdı. Pandemiya dövründə, cənab Prezidentin təbirincə desək "insan sağlamlığı, insan həyatı və insanların sosial müdafiəsi dövlətimiz üçün prioritet məsələyə çevrildi".

COVID-19-un mənfi təsirlərindən qorunmaq üçün dövlət başçısı tərəfindən təkcə ölkə daxilində deyil, qlobal səviyyədə də mühüm addımlar atılmışdır. Bu dövrdə cənab Prezidentin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşləri keçirilmişdir. Həmçinin Qoşulmama Hərəkatının sədri qismində dövlət başçısının təşəbbüsü ilə 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının təşkili Azərbaycanın artan beynəlxalq nüfuzunun və gücünün ən bariz nümunələrindəndir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşündən irəli gələn məsələlərin müzakirəsi məqsədilə 2020-ci il mayın 7-də Azərbaycan Respublikasının sədrliyi təşkilata üzv və müşahidəçi dövlətlərin miqrasiya orqanları və aidiyyəti qurumlarının rəhbərlərinin videokonfrans vasitəsilə iclası keçirilmiş, miqrasiya sahəsində maraq doğuran məsələlər, eləcə də mövcud vəziyyətlə əlaqədar əməkdaşlıq müzakirə olunaraq birgə fəaliyyətin daha da genişləndirilməsi məqsədilə işçi qrupu təsis edilmişdir.

Etiraf edək ki, COVID-19-un yayılma sürəti və müasir dövrdə bu sahədə analoji təcrübənin olmaması beynəlxalq icmanın miqrasiya məsələlərində ümumi prinsip və istiqamətlər formalaşdırmasını çətinləşdirdi. Pandemiya dövründə dövlət sərhədlərində hərəkətlə bağlı tətbiq olunan məhdudiyyətlər səbəbindən olduqları ölkəni tərk edə bilməyən əcnəbilərin hüquqi statusunun müəyyənləşdirilməsi, qaçqın statusu əldə etmək üçün müraciət edən şəxslərin vəziyyəti, qanunsuz miqrantlar barəsində görüləcək tədbirlər başda olmaqla, miqrasiya sahəsində çevik qərarların qəbul edilməsini və preventiv addımların atılmasını zəruri etdi.

Mövcud şəraitdə Azərbaycanın miqrasiya idarəçiliyi elektron xidmətlərdən istifadənin təşviqi, kommunikasiyanın gücləndirilməsi və miqrasiya proseslərinin bütün iştirakçıları ilə əməkdaşlığın genişləndirilməsi üzərində quruldu. Ölkədə tətbiq olunan xüsusi karantin rejiminin şərtləri də nəzərə alınmaqla, əcnəbilərin maksimum rahatlığını təmin etmək və insan sağlamlığını qorumaq məqsədilə miqrasiya xidmətləri üçün tətbiq olunan inzibati prosedurlar xeyli sadələşdirildi.



*Vüsal Hüseynov*
*Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri*

Pandemiya dövründə Dövlət Miqrasiya Xidmətinin göstərdiyi bütün xidmətlərin elektron qaydada əldə edilməsi təmin olundu. Belə ki, göstərilən xidmətlərin daha əlçatan, operativ və əlverişli olması məqsədilə elektron xidmətlərin sayı artırılmış və ondan istifadə xeyli sadələşdirilmiş, həmçinin Xidmətin mobil tətbiqi (MigAz) üzərindən müraciət imkanları genişləndirilmişdir. Bununla yanaşı, fiziki olaraq qəbul şöbələrinə yaxınlaşmaqla müraciət imkanı da saxlanılmışdır. Qeyd edilməlidir ki, 2020-ci ildə iş və yaşama icazələri ilə bağlı elektron müraciətlərdən istifadə edənlərin sayı 8.5 dəfə artmışdır.

Bu dövrdə Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi elektron xidmətlərdən rahat istifadənin təmini, eləcə də mövcud vəziyyətlə əlaqədar müvafiq prosedurlar barədə ictimaiyyətin vaxtında və dolğun məlumatlandırılması diqqət mərkəzində saxlanılmışdır. Elektron xidmətlərdən istifadə qaydaları və həyata keçirilən işlərlə bağlı müxtəlif dillərdə hazırlanmış maarifləndirici və məlumatlandırıcı vəsaitlər, o cümlədən videotəlimatlar, həmçinin müvafiq prosedurlar barədə məlumatlar Xidmətin rəsmi veb-səhifəsi, "WhatsApp" əlaqə vasitəsi, MigAz mobil tətbiqi və 919 Çağrı Mərkəzi, sosial şəbəkə hesabları (Facebook, Twitter, YouTube, Instagram, Telegram) da daxil olmaqla Kütləvi İnformasiya Vasitələri ilə hədəf qruplarına çatdırılmışdır. Fasiləsiz fəaliyyət göstərən və ölkə xaricindən gələn zənglərə də açıq olan, bu dövrdə gücləndirilmiş iş rejiminə keçirilməklə yanaşı, işçi qüvvəsi və texniki imkanları artırılmış Çağrı Mərkəzinə 2020-ci ildə edilən zənglərin sayı 2019-cu illə müqayisədə 2.2 dəfə artmışdır.

2020-ci ildə Dövlət Miqrasiya Xidməti pandemiyanın sahibkarlara mənfi təsirlərini nəzərə alaraq, özəl sektorla olan tərəfdaşlığını daha da gücləndirmişdir. Ölkədə mövcud olan səmərəli dövlət-özəl sektor tərəfdaşlığı və əmək miqrasiyası sahəsində Azərbaycanın müsbət beynəlxalq imici ehtiyac duyulan sahələr üzrə əcnəbi mütəxəssislərin işə cəlb olunması prosesini bu dövrdə də uğurla davam etdirməyə imkan vermişdir. Belə ki, 2020-ci ildə iş icazəsi əldə edən əcnəbilərin sayı pandemiyanın miqrasiyaya kəskin mənfi təsirlərinə baxmayaraq, 2019-cu illə müqayisədə cəmi 9% azalmışdır. Bu dinamika pandemiya şəraitində ölkənin sosial-iqtisadi stabilliyinin qorunması üçün dövlət tərəfindən görülmüş tədbirlərin nə qədər səmərəli və effektiv olmasını göstərir.

Dövlət Miqrasiya Xidmətinin pandemiya dövründə sığınacaq axtaran şəxslər və qanunsuz miqrantlarla bağlı həyata keçirdiyi tədbirləri də qabaqcıl beynəlxalq təcrübələrlə uyğunluq təşkil etmişdir. Bu dövrdə Xidmət tərəfindən qaçqın statusunun əldə edilməsi üçün müraciətlərin qəbulu davam etdirilmiş və sığınacaq sistemi ilə bağlı müvafiq sənədləşmə elektron qaydada təmin edilmişdir. Bu innovativ yanaşma BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən ən yaxşı təcrübə kimi qeyd olunmaqdadır.

Qaçqınların və sığınacaq axtaran şəxslərin sosial ehtiyaclarını təmin etməsinin çətinliyi nəzərə alınaraq, Dövlət Miqrasiya Xidməti tərəfindən vətəndaş cəmiyyəti institutları, o cümlədən "Miqrasiya Könüllüsü" İctimai Birliyi və digər tərəfdaşlarla birgə davamlı olan sosial yardım layihələrinin həyata keçirilməsi təmin olunmuşdur. Qeyd edilməlidir ki, Azərbaycan vətəndaşları kimi ölkəmizdə məskunlaşan qaçqınlar və sığınacaq axtaran şəxslər üçün də tibbi yardım ödənişsizdir. Hazırda bu kateqoriyadan olan şəxslərin dövlət tərəfindən pulsuz vaksinasiyası davam etdirilir.

Pandemiya dövründə miqrasiya sahəsində ən vacib məsələlərdən biri ölkəni tərk edə bilməyən əcnəbilərin qanunsuz miqrant vəziyyətinə düşməsinin qarşısını almaq və qanunsuz miqrantların ölkədə yaşamasını leqallaşdırmaq idi. 2020-ci ildə dövlət sərhədində hərəkətlə bağlı tətbiq olunan məhdudiyyətlər səbəbindən ölkəni tərk edə bilməyən 60 minə yaxın əcnəbinin olma müddəti əlavə müraciət olmadan Dövlət Miqrasiya Xidməti tərəfindən uzadıldı. Hazırda dövlət sərhədində giriş-çıxış tam bərpa olunanadək bu əcnəbilərin ölkədə yaşaması leqal hesab olunur.

Dövlət Miqrasiya Xidməti qanunsuz miqrasiya ilə mübarizə sahəsində müvafiq inzibati tədbirlərin görülməsi ilə yanaşı, qanuni miqrasiyanın təşviq edilməsini ən təsirli vasitələrdən biri hesab edir. Son 3 ildə ölkədə qeyri-qanuni vəziyyətdə olan miqrantların ümumi sayı təxminən yarıyadək azalıb. Bu nəticə əldə olunarkən ölkə ərazisində qeyri-qanuni vəziyyətdə yaşayan miqrantlarla bağlı sərt inzibati tədbirlər görülməsi deyil, onların leqallaşdırılması əsas istiqamət olaraq müəyyən olunub.

Beynəlxalq təşkilatlar tərəfindən rəhbərlik edilən Saxlamaya Alternativlər üzrə İşçi Qrup, BMT-nin Miqrasiya üzrə Şəbəkəsi başda olmaqla, bir çox beynəlxalq təsisatlar pandemiya dövründə dövlətlərə

# Dövlət Miqrasiya Xidmətinin çevik və səmərəli idarəçilik modeli Azərbaycanın miqrasiya sahəsində regional mərkəzə çevrilməsi üçün əlverişli şərait yaradıb

miqrantların saxlama mərkəzlərinə yerləşdirilməsini və məcburi qayıdışını dayandırmaq, saxlama mərkəzlərində olanları azad etmək və qanunsuz miqrantları leqallaşdırmaqla bağlı çağırışlar edirdilər. Lakin unutmayaq ki, Azərbaycan beynəlxalq qurumların açıqlamalarından daha əvvəl qanunsuz miqrasiya ilə bağlı siyasətini qeyd olunan istiqamətlərdə formalaşdırmışdı. Hazırda ölkəmizdəki miqrantlarla bağlı saxlama mərkəzlərində çox az sayda əcnəbi maddi imkanlarının zəifliyi səbəbindən öz müraciətləri əsasında qalırlar. Ötən dövr ərzində Mərkəzlərdə sanitar-gigiyenik vəziyyət ciddi nəzarətdə saxlanılmış və zəruri profilaktik tədbirlər görülmüşdür. Xüsusən vurğulanmalıdır ki, indiyədək saxlanılan əcnəbilərin heç birində COVID-19 aşkar edilməyib.

Dövlət Miqrasiya Xidməti pandemiya dövründə bütün zəruri tədbirlər görməklə yanaşı, post-pandemiya dövründə əsas fəaliyyət istiqamətlərini müəyyən edib. Dövlət sərhədlərində hərəkət məhdudiyyəti aradan qaldırıldıqdan sonra ölkədən çıxa bilməyən əcnəbilərin qısa müddətdə ölkəni rahat tərk etməsi təmin olunmaqla yanaşı, qanuni miqrasiya kanallarının uzun müddət məhdudlaşdırılması fonunda artması gözlənilən qanunsuz miqrasiya meyllərinə qarşı miqrasiya nəzarəti tədbirləri gücləndiriləcək və bu məsələ xüsusi nəzarətdə saxlanılacaqdır.

2020-ci ildə Dövlət Miqrasiya Xidməti tərəfindən görülmüş işlər həm dövlətdaxili, həm də beynəlxalq tərəfdaşların tərtib etdikləri hesabatlarda yüksək qiymətləndirilib. Belə ki, dövlət xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyan "ASAN xidmət indeksi" üzrə qiymətləndirmənin yekunlarına görə, Dövlət Miqrasiya Xidməti əvvəlki iki ildə olduğu kimi, 2020-ci ildə də mərkəzi icra hakimiyyəti orqanları arasında ən yüksək nəticəni (85.54%) əldə etdi. Bununla yanaşı, qeyd edilməlidir ki, Avropa İttifaqının ənənəvi "Azərbaycanda Biznes Mühiti Hesabatı"nda son iki ildir (2019 və 2020) ki, miqrasiya siyasəti 5 ən yaxşı biznes mühiti göstəricisi arasında qeyd edilir. 2020-ci ildə dərc olunan daha bir sənəddə - Alman-Azərbaycan Xarici Ticarət Palatasının "Azərbaycanda Xarici Biznes Hesabatı"nda Dövlət Miqrasiya Xidmətinin fəaliyyətindən, o cümlədən elektron xidmətlərin optimallaşdırılmasından, özəl sektorla faydalı tərəfdaşlığın qurulmasından və şəffaf miqrasiya rejiminin təmin edilməsindən razılıq ifadə olunmuşdur.

Dövlət Miqrasiya Xidmətinin əsas fəaliyyət istiqamətlərindən biri də səmərəli beynəlxalq əməkdaşlığın genişləndirilməsi və gücləndirilməsidir. Ötən dövrlərdə Xidmət tərəfindən bu sahədə bir sıra mühüm nəticələr əldə olunub. 2020-ci ilin fevralında Azərbaycan üzvlərinin sayına və əhatə dairəsinə görə miqrasiya sahəsində ən böyük beynəlxalq təsisat olan Miqrasiya və İnkişaf üzrə Qlobal Forumun Rəhbər Qrupuna üzv seçilib. Forumun məqsədi miqrasiya sahəsində mövcud regional məsləhətləşmələri dəstəkləməklə, milli, eləcə də beynəlxalq səviyyədə miqrasiya və inkişaf üçün inteqrə edilmiş yanaşmanı təşviq etməkdən ibarətdir.

Bununla yanaşı, ölkəmiz də daxil olmaqla, BMT-yə üzv 152 dövlət tərəfindən qəbul edilmiş "Təhlükəsiz, Nizamlı və Tənzimlənən Miqrasiya üzrə Qlobal Kompakt"ın icrası məqsədilə təsis olunan BMT-nin Miqrasiya Şəbəkəsi 2020-ci ilin iyulunda Azərbaycanda da yaradılıb.

2020-ci il fevralın 25-də Azərbaycan və Türkiyə vətəndaşları üçün xüsusi əhəmiyyət daşıyan "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında Saziş" (2020-ci il 13 avqust tarixində qüvvəyə minmişdir) və dekabrın 10-da isə Sazişə 1 saylı Protokol, eləcə də 2020-ci il martın 11-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlıq haqqında Saziş" (2020-ci il 6 iyun tarixində qüvvəyə minmişdir) imzalanıb.

Son dövrdə Azərbaycanın miqrasiya sahəsində beynəlxalq əməkdaşlığının genişləndirilməsində önəmli hadisələrdən biri də 2021-ci ilin 16 martında Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin təsis edilməsi haqqında müqavilənin imzalanması oldu. Bununla, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə miqrasiya sahəsində Azərbaycanda daimi nümayəndəliyi olan beynəlxalq təşkilatların sayı 3-ə çatdı.

Dövlət Miqrasiya Xidmətinin maddi-texniki və intellektual bazası, innovativ həllərə əsaslanan çevik və səmərəli idarəçilik modeli Azərbaycanın miqrasiya sahəsində regional mərkəzə çevrilməsi üçün əlverişli şərait yaradıb. Hazırda Xidmət Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə "Azərbaycanda miqrasiya üzrə regional təlim mərkəzinin yaradılmasına dəstək" layihəsini icra etməkdədir. Bu layihə Azərbaycanın miqrasiya siyasətinin və idarəçiliyinin uğurlu olmasının mühüm göstəricilərindəndir.

Bundan sonrakı dövrdə də Dövlət Miqrasiya Xidməti öz fəaliyyətini beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə yanaşı, elektronlaşmanın təşviqi, bütün mümkün vasitələrlə effektiv kommunikasiyanın gücləndirilməsi və sosial-iqtisadi inkişafı dəstəkləyən miqrasiya rejiminin təmini istiqamətində qurmaqda davam edəcəkdir. Elektron resurslardan doğru istifadə olunması ilə qurumdaxili idarəçilikdə çevikliyin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi əsas prioritetlərdən biri kimi qalacaqdır.

Miqrasiya proseslərinin tənzimlənməsi məsələlərinə Prezident cənab İlham Əliyevin verdiyi xüsusi önəm Dövlət Miqrasiya Xidmətinin kollektivini daha da inamla xidmət etməyə, dövlət qarşısında xidməti borclarını daha əzmlə yerinə yetirməyə sövq edir. Kollektivimiz bundan sonra da dövlətçiliyimizin maraqlarının qorunmasında və təhlükəsizliyimizin təmin edilməsində fəal iştirakla yanaşı, ölkə vətəndaşlarına, həmçinin əcnəbilərə yüksək səviyyədə xidmət göstərəcəkdir.

***Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da Miqrasiya proseslərinin tənzimlənməsi məsələlərinə daha da inamla xidmət göstərməyə, müəyyən edilmiş tapşırıqların icrasını daha əzmlə yerinə yetirməyə davam edəcək.***

## Daha 2 şəhid övladının adına 5000 AZN-lik hesab açılacaq

"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir. SİA xəbər verir ki, daha 2 şəhidimizin yeni doğulan övladlarının, şəhidimiz İntiqam Əsgərlinin övladı İntiqamın, şəhidimiz Turab Quliyevin övladı Turabın zəruri xərcləri Fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN analara təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.



Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

## Movses Vardanyan: "Ermənistan AES-in istismar müddətinin uzadılmaması riski var"

Təhlükə olacağı təqdirdə, Ermənistan AES-in istismar müddətinin uzadılmaması riski var. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistan AES-in baş direktoru Movses Vardanyan 18 martda jurnalistlərə verdiyi müsahibəsində söyləyib. Vardanyan, ikinci enerji blokunun ömrünün 2026-cı ilə qədər uzadılması ətrafında müzakirələrin 2015-2016-cı illərdən bəri davam etdiyini xatırladıb.



"Eyni enerji bloklarının timsalında digər ölkələrin təcrübəsini nəzərə alaraq, bir təhlükəsizlik baxımından səbəb olmazsa, nüvə stansiyasının ömrünü 5-10 il uzatmaq fikrindəyik", deyə AES-in baş direktoru bildirib.

## Qasparyan açıq şəkildə Paşinyanın istefasını tələb edib



Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən istefaya göndərilən general Qasparyanın vəzifəsində qalmasına qərar verilib. Qasparyan açıq şəkildə Paşinyanın Qarabağ müharibəsindəki uğursuzluq səbəbindən istefasını tələb edib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Qasparyanın komandanlığı altında olan erməni ordusu son günlərdə ikinci dəfə Paşinyanın istefasını istəyib. Ordu rəsmilərinin verdiyi açıqlamada Baş Qərargah rəisi general Onik Qasparyanın respublikanın vəziyyəti ilə bağlı səsləndirdiyi fikirlərlə razı olduğunu və 10 martda yayımlanan mesajında verilən tövsiyələri təlimat olaraq qəbul etdiyini qeyd edib.

***Arzu Qurbanlı***

# Qələbə zəfərinin növbəti dəfə nümayişi

## Prezident İlham Əliyev: “Buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır”

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev cənablarının 44 günlük müharibənin zəfərlə bitən və işğaldan azad edilən bölgələrə dərhal tarixi səfərləri hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Təbii ki, bu Qələbə zəfərdən sonra işğaldan azad olunan rayonlarına səfəri Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması məqsədi daşıyır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahid oldu ki, torpaqların əsl sahibləri qayıdıb... Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi. Qalib ölkənin Müzəffər Komandanı qazanılmış Qələbəyə möhürünü vurmaq üçün həmin ərazilərə tarixi səfərlərini edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 15-də Füzuli və Xocavənd rayonlarında olublar.

### Dövlət başçımızın işğaldan azad olunmuş torpaqlara tarixi səfərləri dünyaya bir mesajdır

Dövlətimizin başçısı Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın, Şuşa səfərlərindən sonra Xocavəndə, keçmiş Hadrut rayonuna, qədim yaşayış məskəni olan Tuğ, Azıx, eləcə də Edili, Düdükçü kəndlərinə səfəri baş tutub və səfər zamanı yol boyu kənd və şəhərlərimizin ermənilər tərəfindən vəhşicəsinə dağıdıldığını, viran qoyulduğunu bütün dünya ictimaiyyətinə bir daha göstərdi. Azərbaycan Prezidenti ermənilərin bu ərazilərdə canlı təbiətə böyük ziyan vurduqlarını bir daha diqqətə çatdırdı: “Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq”.

### Azərbaycan Prezidenti Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub - Füzulidən Şuşaya yol, Zəfər yolu çəkilir

“Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir-Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir” deyən Cənab Prezident onu da bildirib ki, Horadizdən Zəngilana qədər yol çəkiləcək: “Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır. Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndində keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır - quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü”.

### “Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik”

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşüblər. Prezidenti İlham Əliyev deyib: “Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb”.

Prezident İlham Əliyev Füzuli şəhərində olarkən ermənilərin vandal, işğalçı, talançı olduğunu onları müdafiə edənlərə göstərərək onları düzgün yola gəlmək çağırışını etdi: “Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!”

### “Dırnaqarası “Artsax dövləti” - cəhənnəmə getdi”

“Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası “Artsax dövləti” - cəhənnəmə getdi”,-deyərək bildirib ki, “dövlət” niyə bu günə kimi daşı-daş üstünə qoymayıb: “Dövlət” idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır”. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırıb və çıxış edərək bildirib ki, Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi: “Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi. Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi”.

“Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq”.

Dövlət başçısı bildirib ki, Azərbaycan 44 gün ərzində şanlı qələbə çaldı: “Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır”.

### “Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım”

“Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz”,-deyən Prezident İlham Əliyev onu da söyləyib ki, ermənilər nə ediblər: “Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!”

### “Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir”

Prezident İlham Əliyev Tuğ kəndində olarkən bildirib ki, Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

Birinci xanım Mehriban Əliyeva: “Budur məktəbin binası?”

Prezident İlham Əliyev: “Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq. Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir. Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar. Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik”.

Prezident İlham Əliyev Alban məbədində olarkən deyib: “Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur. Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq”.

Dövlətimizin başçısı Azıx kəndində olarkən bildirib ki, Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir: “Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır. Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar. Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.

Bəli, artıq Qalib ölkənin Qalib Liderimizin dediyi kimi, bu torpağın sahibləri qayıdıblar, əllərində silah və bayraq, ürəklərində Vətən sevgisi! Uğurlu tarixi səfərlərinizlə hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadan dövlət başçımızın dediyi kimi: “Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.

**RƏFİQƏ KAMALQIZI**



# Şuşada olan tarixi abidələrimizə qarşı erməni vandallığı






Prezident İlham Əliyev:
"Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər"



**30 ilə yaxın erməni işğalçıları tərəfindən işğal olunan qədim tarixi torpaqlarımızda Ermənistanın hərbi birləşmələri yaşayış yerlərini, insan məskənlərini, eləcə də milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqlarında 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri qalmışdı.**

Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağında idi. Ermənilərin vandal əməlləri "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

## "MƏN DEYƏNDƏ Kİ, SANKİ VƏHŞİ QƏBİLƏ KEÇİB BURADAN, BAX, BU MƏNZƏRƏNİ NƏZƏRDƏ TUTURAM"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərində olarkən dövlət başçısının bildirdiyi kimi, azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir: "Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam".

Bütün məscidlərimiz erməni vəhşiliyinin nəticəsidir ki, dağıdılmışdır. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlar, türbələr, məzarüstü abidələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli abidələrimiz məhv edilib. Memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları hərbi məqsədlər üçün istifadə edilib. Bundan başqa, Şuşada Tarix Muzeyi, Daş Sənətkarlığı Muzeyi, Dərman Bitkiləri Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın və Mir Möhsün Nəvvabın ev muzeyləri fəaliyyət göstərirdi. Bütün bu muzeylər 1992-ci ilin mayında Şuşanı işğal etmiş erməni vandalları tərəfindən dağıdılaraq, yerlə-yeksan edilmiş, onların eksponatları qarət edilərək, aparılmışdır. Yalnız Xalça Muzeyində saxlanılan və 300-dən artıq əl işi olan xalçaların 145-ni xilas etmək mümkün olmuşdur.

## "ERMƏNİLƏR BÜSTÜ SÖKÜB DÜKAN TİKİBLƏR"

Şuşa mağarası, Şuşanın qala divarları, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi də ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Dövlət başçısı arxivdən tapdığı şəkillərə diqqəti yönəldərək 1982-ci ilin yay ayında burada keçirilən tədbiri diqqətə çəkib: "Məqbərənin önündə Ulu Öndər Heydər Əliyev. İnsanlar da bax, burada, bu tədbirdə iştirak edirdilər. Keçən dəfə burada olarkən bu yerə fikir verdim və dedim ki, arxivdən şəkillər tapılsın, burada nə olub və bu şəkil tapıldı". Cənab Prezident Ulu Öndərin o vaxt Şuşaya səfəri ilə əlaqədar daha bir neçə şəkili arxivdən tapdığını bildirib. Cıdır düzündə, Natəvan bulağının önündə çəkilən tarixi şəkillərə diqqəti yönəldib: "Bir şəkil də var, onu da göstərməliyəm. Burada Vaqifin büstü də var idi. Keçən dəfə Şuşada olarkən mən göstərdim ki, ermənilər büstü söküb dükan tikiblər. Bax, budur. Vaqifin büstü, Ulu Öndər də baxır. Bu büstü də bərpa edəcəyik".





## "VAQİFİN MƏQBƏRƏSİNDƏ TEZLİKLƏ BƏRPA İŞLƏRİ BAŞLANACAQ"

Xatırlatmaq yerinə düşər ki, Qarabağ xanlığının vəziri vəzifəsində çalışan Vaqif özünü layiqli dövlət xadimi, müdrik və uzaqgörən bir siyasətçi kimi göstərə bilmişdi. Bununla yanaşı o, Şuşada bir çox obyektlərin tikintisində iştirak edib. Belə ki, o, Şuşada Xan sarayının, Şuşa divarlarının və s. tikintisinə rəhbərlik edib. Vaqif mühəndislik elmini yaxşı bildiyinə görə, Şuşa şəhərinin ətrafına çəkilmiş divarların tikintisi və möhkəmləndirilməsinə rəhbərlik ona tapşırılıb. Şuşanın inkişafına öz töhfəsini verən bir insanın məqbərəsi erməni vandallarının hədəfinə çevrilib. Cənab Prezident "Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq" deyərək bildirib ki, məqbərənin əvvəlki görkəmi bərpa ediləcək: "Bu gün bərpa işlərinə start veriləcək". Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcəkdir. "Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə", deyə Cənab Prezident bildirib. Artıq işğaldan azad olunan məkanlarda məscidlərin bərpası ilə bağlı müvafiq göstərişlər verilib və ilkin araşdırmalar aparılır. Ermənilər Şuşada 30 il ərzində bütün tarixi abidələrimizə qarşı dağıdıcı mövqedə olublar. Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olan tarixi sarayı da dağıdıblar. "Şuşanı quran, Şuşanı salan Pənahəli xan özü üçün burada saray tikdirib. İndi görün, ermənilər nə günə salıblar bu sarayı. Tarixi abidə idi. Mənfur düşmən gəlib bizim torpağımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib. Bütün beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər bunu. Erməniləri müdafiə edən, onları dəstəkləyən, onlara həmişə arxa, dayaq olan dairələr gəlsinlər, görsünlər bu vəhşilər nə ediblər".

Erməni vandalları XIX əsrə aid Karvansaray tarix-memarlıq kompleksini, Şuşa şəhərinin rəsm qalereyasını da dağıtmışdılar. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olundu və bu gün yeni bir yüksəliş dövrü başlayıb. Şuşa şəhərində, eləcə də işğaldan azad olunan bütün ərazilərdə olan tarixi-dini abidələrimiz bərpa olunacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Heydər Əliyev və Nizami Gəncəvi irsi"

## *AMEA Mərkəzi Elmi Kitabxanasında Heydər Əliyev lektoriyasının məşğələsi keçirilib*

**AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsinin təşkilatçılığı ilə Heydər Əliyev lektoriyasının "Heydər Əliyev və Nizami Gəncəvi irsi" adlı növbəti məşğələsi keçirilib. AMEA Mərkəzi Elmi Kitabxanasının İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya daxil olan məlumata görə, magistr, doktorant və dissertantların iştirak etdiyi lektoriyanı giriş sözü ilə açan AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru, professor Məmməd Əliyev bildirib ki, Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır.**





Qeyd edilib ki, dahi şairin irsinin tədqiqi və təbliğində ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə əsaslı dönüş yaranmışdır. Klassik irsimiz və böyük dahilərimizə qiymət verməyi bacaran ulu öndər Heydər Əliyev Nizami Gəncəviyə xüsusi rəğbət bəsləyib. Fenomen şəxsiyyət Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu missiya uğurla davam etdirilir. 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilməsi nizamişünaslıq elmini daha da irəli aparmağa geniş imkanlar yaradır. Direktor qeyd edib ki, "Nizami Gəncəvi İli" çərçivəsində AMEA MEK tərəfindən tədbirlər planı hazırlanıb. Plana əsasən MEK-in rəsmi saytında Nizami Gəncəvinin MEK-də mövcud olan əsərlərindən ibarət "Nizami Gəncəvi İli" adlı elektron baza yaradılıb, kitablardan ibarət videoslaydlar hazırlanıb. Hazırda isə MEK tərəfindən Nizami Gəncəvi biblioqrafiyasının çapa hazırlandığı və irəlidə silsilə tədbirlərin olacağı da vurğulanıb.

Sonra Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlinin "Heydər Əliyev və Nizami Gəncəvi irsi" mövzusunda geniş məruzəsi dinlənilib. Akademik adı ictimai fikir tarixinə qızıl hərflərlə yazılmış ümumilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və mənəviyyatına qayğı və diqqət yetirən, himayə edən böyük şəxsiyyət olduğunu xüsusi vurğulayıb. Qeyd olunub ki, Heydər Əliyev Nizami, Nəsimi, Füzuli, M.F.Axundov, M.Ə.Sabir, C.Məmmədquluzadə və digər ədiblərimizin əsərlərinə dərindən bələd idi. Məruzəçi qeyd edib ki, şairin məşhur "Xəmsə"si, insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" Qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. Dahi rəhbər Heydər Əliyev Bakıda metronun "Nizami" stansiyasının tikilişinə, həmçinin şairin doğma yurdu Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq inşa olunması ilə əlaqədar göstəriş vermiş və işin gedişi ilə şəxsən maraqlanmışdır.

Akademik qeyd edib ki, Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilib. Bu il dahi şairin 880 illik yubileyi ərəfəsində ölkə Prezidenti İlham Əliyev tərəfindən 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunması dünya miqyaslı qüdrətli sənətkarın irsinin təbliği və tədqiqi üçün Azərbaycan ziyalılarını yenidən səfərbər olmağa çağırdı. Sonda akademik Teymur Kərimli MEK-in təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin zəngin irsinin ətraflı öyrənilməsi və təbliği məqsədi ilə keçirilən lektoriyaların əhəmiyyətindən danışıb və xatirə kitabına ürək sözlərini yazıb.

***Rövşən RƏSULOV***

# 19 mart terror aktından 27 il ötür

**Bu gün 1994-cü il martın 19-da erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilən terror aktından 27 il ötür.**



Terror nəticəsində, 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanların arasında Azərbaycan Respublikasının xalq artisti Rafiq Babayev də var idi. Məhkəmə sübut edib ki, 19 mart saat 13:00-da "20 Yanvar" metrostansiyasında saat mexanizmi ilə təchiz edilmiş əldədüzəlmə partlayıcı qurğu qatarın ilk vaqonunda, qatar dayanarkən partlayır. Terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb, separatçı "Sadval" təşkilatının üzvləri tərəfindən həyata keçirilib. Müəyyən olunub ki, "Sadval" separatçı təşkilatının həmin fəalları, 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olub, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak edib. 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçib. İstintaq zamanı müəyyənləşdirilib ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika Sarayında və Bakı Lampa zavodunda da partlayışlar törətməyi planlaşdırıblar. "20 Yanvar" metrostansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilib.

Xatırladaq ki, 1994-cü ilin iyul ayının 3-də Bakı metrosunda ikinci terror aktı oldu. Saat 20:30-da "28 May" metrostansiyasından çıxan, "Gənclik" metrostansiyasının platformasına 500 metr qalmış, elektrik qatarını ikinci vaqonunda partlayış baş verir. Partlayışdan sonra qatarda yanğın baş verir. Terror aktı nəticəsində 13 nəfər həlak olmuş və 58 nəfər isə yaralanmışdır. Bu və ya digər erməni terror təşkilatlarının törətdikləri terror aktlarına nəzər salsaq, nələrin baş verdiyinin bir daha şahidinə çevrilərik: 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə, 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. 30 noyabr 1990-cı ildə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır. Bu terror aktlarını sadaladıqca bitmir. Hər biri neçə-neçə insan ölümünə səbəb olub. Terror-düşünülmüş insan qətlidir. İnsanların qəsdən məhv edilməsi cəhdidir ki, bütün bu və ya digər hadisələri törədənlər də, məhz ermənilərdir, erməni terrorunun izləridir.

***Zümrüd BAYRAMOVA***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Günahkar yalnız bizikmi..?

**Deyilənə görə, koronavirus pandemiyasının üçüncü dalğası ölkəmizə daxil olub, özü də bu dəfə Britaniya ştammı ilə. İnsanlarımız yeni-yeni yoluxma azalmasının dadını çıxarmağa başlayarkən, karantin rejiminin sərtləşdirilməsi ətrafında gəzən söz-söhbətlər də bir tərəfdən onsuz da səbri tükənmiş ictimaiyyətin daha da səbrsiz olmasına səbəb yaratmaqdadır.**

TƏBİB bir tərəfdən vətəndaşları pandemiya mühitində davranmağın yollarını göstərir, hətta insanlarımızı ara-sıra ittiham edir, digər tərəfdən isə pandemiyanın sürətlə artmasına şərait yaradan vasitələrə göz yumduğunu müşahidə etdiyimiz, nəticə çıxardığımız müəyyən faktlarla isbatlamış olur. Düzdür, bir çox hallarda öz sağlamlığına biganə yanaşanlarımız da az deyil və hər addımda virusa yoluxma təhlükəsi ilə qarşı-qarşıya qalaraq digərlərinin də yoluxmalarına səbəb yaradan bu kimi tiplər, əslində, mənəvi cinayətə yol verirlər. Misal üçün, ötən bir ildə yoluxduranın sağalmasını, yoluxdurduğu insanın isə həyatını itirməsini əks etdirən koronavirus hekayələrini az eşitməmişik. Belə olan halda etiraf etməliyik ki, bizlərdə də az günah yoxdur. Bir sıra hallarda tibbi maskadan istifadə edərkən özümüz-özümüzü aldadırıq və yoluxma riskimizi artırmaqla yanaşı, yoluxdurma riskini də ətrafa yayırıq. Amma...

Amma harada, niyə və necə? Məsələn, iş ondadır ki, bizlər daha çox ictimai nəqliyyatdan istifadə edirik və təkcə bu faktın özü növbəti sualları yaradır - səhər və axşam, pik saatlarında işlərindən evlərinə dönən insanlar, sözün əsl mənasında, bir-birinin üzərində gedirlər və belə olan halda asqıran kim, öskürən kim...

Hətta maska taxılarsa belə, virusun yayılması ehtimalı özünü göstərə bilər. Və ya götürək kafe, çayxana, restoran və s.kütləvi xidmət göstərən iaşə obyektlərini. Həmin yerlərdə də əslinə qalanda hər hansı bir ehtiyat tədbirləri görülməməkdədir. Söz yox ki, yoluxma halının artmasına səbəb olan bu amili də istəsək-istəməsək vurğulaya biləcik.

Fəqət burada pandemiyanın yaratdığı növbəti bir problem ortaya çıxır. Yəni iaşə obyektlərinin işlədilməsinə verilən icazə varsa, nəyə görə toy, nişan kimi tədbirlərin də müəyyən həddə keçirilməsinə rəsmi icazə verilmir? Gəlin axşamlar şəhərin müxtəlif nöqtələrində fəaliyyət göstərən iaşə obyektlərinə baxın və nəticə çıxarın - bir ortabab restoranda axşam saatlarında ən azından ayrı-ayrılıqda, ya da bir neçə qruplar şəklində 100-ə qədər müştəri oturur. Yəni bu sayda qohum-əqraba bir yerə yığışarsa, rahat bir toy-nişan mərasimi keçirmək olar. Daha doğrusu, bunun da bir mexanizmini tapmaq elə də çətinlik yaratmır. Elədirsə hörmətli TƏBİB nəyə görə yüzlərlə gənclərimizin ailə qurmalarına şərait yaradan həmin mexanizmi həyata keçirmir? Onsuz da iaşə obyektləri bəlli sayda müştərilərinə xidmət göstərirlər.

Hələ o ki qala ictimai nəqliyyatlara - yuxarıda da qeyd edildiyi kimi, bir avtobusda elə bir toyun adamı gedir və nədənsə həmin məsələ TƏBİB-i narahat etmir. Bunun yerinə metronun fəaliyyəti qadağan edilir, ya da digər qadağaların tətbiqi reallaşdırılır. Başqa məsələlərdə isə sən demə yoluxma riski-filan olmurmuş - məncə absurddur!

Yaxud böyük ərzaq marketlərinə də kiçik bir nəzər salaq. Günün istənilən saatlarında insanlar kütləvi şəkildə alış-verişlərini aparırlar və hətta sərt karantin rejimlərində də həmin kütləvilik müşahidə edilib. Bu zaman müxtəlif ticarət mərkəzləri niyə bağlanır? Məgər həmin mərkəzlərdə də eyni əhali, eyni insanlar alış-veriş etmirlərmi?

İndi bizləri bir sual maraqlandırır ki, görəsən daha çox biz günahkarıq, yoxsa karantin qaydalarını sərtləşdirən və qeyd edilən qaydaların gah tətbiq edilməsini, gah da aradan qaldırılması qərarını verən TƏBİB, yaxud digər müvafiq qurumlar? Yoxsa Britaniya ştammının da Azərbaycana təşrif buyurmasının günahkarları bizlər - vətəndaşlarıq? Yəqin ki, bunun da izahatını ya ciddi, ya da qeyri-ciddi təsirlər vasitəsi ilə eşidib-öyrənəcəyik. Yəni görək TƏBİB nə deyəcək..?

***Rövşən RƏSULOV***

***P.S. Sizi inandırım ki, virusun artmasına səbəblərin başında dayanan əsas faktorlardan biri də tez-tez xarici ölkələrə yeri gəldi-gəlməz səfər edən imkanlı insanlardırlar. Görəsən, hörmətli TƏBİB sərhəd-buraxılış məntəqələrində, hava limanlarında daha əvvəllər tətbiq edilən karantin rejimini onlara qarşı həyata keçirirlərmi?***

MİDA

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Hövsan Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Zığ şossesi-Hava Limanı 12-ci km. "22" ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin 1 saylı binası üzrə 4, 2 saylı binası üzrə 22, 3 saylı binası üzrə 52, 4 saylı binası üzrə 23, 6 saylı binası üzrə 159 və 7 saylı binası üzrə 243 mənzilin, ümumilikdə 503 mənzilin satışı 21 aprel 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 30 aprel 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 26 aprel 2021-ci il tarixində saat 11:00-da başlayacaq və 30 aprel 2021-ci il tarixi saat 11:00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 503 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 28.02.2018-ci il tarixli 24956 və 08.05.2018-ci il tarixli 25318 nömrəli müsbət rəyləri mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi tərəfindən mənzillərin mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 2 | 3 | 51,6 - 56,9 | 62,65 - 70,11 | "HN Construction" MMC (binanın 1-ci, 2-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14; "Perlit" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Gəncə şəhəri, Azərbaycan Dövlət Aqrar Universitetinin yataqxanası, ev 6 | 29 dekabr 2019-cu il |
| | | | | 3 | 1 | 67,2 | 84,9 | | |
| 2 | 7076,02 | 7 | 18 | 1 | 11 | 37,8 - 39,2 | 47,84 - 49,96 | "NN Group" MMC / Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 41, mənzil 47 | 02 yanvar 2020-ci il |
| | | | | 2 | 11 | 50,6 - 58,4 | 61,54 - 71,58 | | |
| 3 | 7076,02 | 7 | 18 | 1 | 19 | 37,9 - 39,2 | 47,84 - 49,96 | "Hünər-İnşaat" Firması (binanın 1-ci, 2-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63; "Hovers Group" MMC (binanın 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 32 | 50,6 - 63,1 | 61,48 - 76,49 | | |
| | | | | 3 | 1 | 69,5 | 85,05 | | |
| 4 | 7076,02 | 7 | 18 | 1 | 6 | 38,5 - 38,6 | 47,7 - 48,75 | "K.E.-İnşaat" MMC (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, ev 122; "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC (binanın 5-ci seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, ev 1937-ci məhəllə | 29 mart 2020-ci il; 29 dekabr 2019-cu il |
| | | | | 2 | 17 | 50,6 - 61,1 | 61,48 - 74,15 | | |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 19 | 37,9 - 39,2 | 47,7 - 49,96 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; "Mək-An" MMM (binanın 3-cü seksiyası) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, ev 26 N | 29 dekabr 2019-cu il |
| | | | | 2 | 121 | 49,9 - 69,3 | 61,48 - 84,11 | | |
| | | | | 3 | 19 | 67,2 - 73,3 | 84,39 - 88,15 | | |
| 7 | 7076,02 | 7 | 18 | 1 | 20 | 37,9 - 38,8 | 47,85 - 48,8 | "NN Group" MMC (binanın 2-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 41, mənzil 47; "Hünər-İnşaat" Firması (binanın 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 18 iyun 2020-ci il |
| | | | | 2 | 157 | 49,9 - 69,3 | 61,39 - 84,11 | | |
| | | | | 3 | 66 | 67,2 - 73 | 84,9 - 87,86 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd:*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

1 otaqlı mənzillərin qiyməti – **32 130** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **138-143 manat** | **182-253 manat** | **245-268 manat** |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 130 | 3 213 | **28 917** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Hövsan Yaşayış Kompleksinin **www.hovsan.mida.gov.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı, Sumqayıt və Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:*** *"Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

**Müşkül məsələlərin müzakirəsində vəziyyəti gərginləşdirməyə çalışanlar haqqında məcazi mənada bu ifadəni işlədirlər: "İngilis açarı." Bəzən "ingilis qaşığı" da deyirlər. Mənası o deməkdir ki, qazana girən kimi hər şeyi biri-birinə qatan bu "qaşıq" sonradan türklərin dediyi kimi "süddən çıxan ağ qaşıq" olur. Yəni, azərbaycansayağı "gül axıdıb" aranı qatsa da, özü bütün mübahisələrdən kənarda qalır. AXCP sədri Əli Kərimli kimi.**

# Əli Kərimli: Qrant mafiyasının "xaç atası"



Ölkəmizdə müxalifət adlı düşərgə yarandığı gündən siyasi partiyaları biri-birinə qarşı qoymaqla lakmus kağızı, buqələmun kimi rəngini dəyişən AXCP sədrini həmkarları araqarışdıran, şarlatan adlandırırlar. Düşərgəni biri-birinə qatan, Azərbaycana qarşı təxribatlarını davam etdirən bütün beynəlxalq təşkilatların əl buyruqçusu olan bu zat Sorosdan tutmuş FETO-ya, terrorçulara, dini radikallara qədər "ekskurs" edərək, ideoloji tribunasını "əl -əli yuyar, əl də Əlini" misalına uyğun zamanla dəyişir.

Bir çox ölkədə "rəngli inqilablar" törətməklə məşğul olan Sorosun Açıq Cəmiyyət İnstitutu tərəfindən ayrılan vəsaitlərdən ən çox bəhrələnən, qrant mafiyasının "xaç atası" adlanan Əli Kərimli əvvəllər mənfur müsahibələrini dostluğu ilə düşmənçilikləri bilinməyən Qənimət Zahid vasitəsilə yayımlayırdı. AXCP sədrinin hazırkı dövrdə tribunası "Osmanqızı TV"dir. "Tıq-tıq xanım " nağılında deyildiyi kimi, illərdən bəri özünə dost axtarsa da, səmum yeli kimi dəyişən mövqeyini alacağı qrantlara müvafiq müəyyənləşdirən və məcazına uyğun dəyişən "islahatçı sədr"in "Osmanqızı TV" ilə də yolları ayrılır. Tərəflərin məkrli niyyətlərindən qaynaqlanan bu "dostluq" da alınmadı. Necə deyərlər, xainin dostluğu tini dönənə qədərdir. Sözümüzün qüvvəti kimi müdriklərimizə müraciət etməklə Əli Kərimlinin xəyanətinin südlə gəlib sümüklə çıxacağını bildirək: Tısbağanın çayı keçdiyini görən əqrəb xahiş edir ki, onu da o taya aparsın. Əqrəbi tanıyan tısbağa deyir ki, səni tanıyıram, ona görə də üz vurma. Axır ki, razılaşırlar. Sahilə çatmağa yaxın iynəsini tısbağaya batıran əqrəb deyir ki, huyum qurusun. Sancmasam ölərəm."

Əli Kərimli də illərdən bəridir ki, təkcə iqtidar əleyhinə deyil, elə həmkarları haqqında söylədikləri böhtanları ilə əqrəbi arxada qoyub.

Onun duz- çörək kəsdiyi elə bir yaxını da yoxdur. Çünki özü düz, halal çörəkli olmayanın duz- çörəyinin bərəkəti olmaz.

Əlqərəz, özünə yaxın bilib, yalanlarını okeanın o tayındakı müdafiəçisi Sevinc Osmanqızının "TV" ilə tirajlayan Əli Kərimlinin xəyanəti üzündən bu " yaxınlığa" da son qoyulub. Yəni, eyni əqidədə olan Vətən xainləri arasından "qrant" adlı qara pişik keçib. Dünənə qədər başına tumar çəkdiyi Əli Kərimlini savadsız, səviyyəsiz adam kimi tənqid edən Sevinc Osmanqızı Əli Kərimlinin düşərgədəki xəyanətlərindən söz açmaqla, "islahatçı sədr"in qara rəngdən ibarət "tərcümeyi-halını" gündəmə gətirir. Sevinc-Əli birliyinin üstündən yel əsməsinin səbəbi elə xarici ölkələrdən ayrılan vəsaitdən daha çox bəhrələnmək istəyidir. Çünki bu əqidədaşların əsas niyyətləri Vətənə xəyanət, Azərbaycanın uğurlarına kölgə salmaq, qanı-canı bahasına torpaqlarımızı işğaldan azad edən ordumuzun zəfərinə qara yaxmaqdır. Özünə ustad hesab etdiyi sabiq prezident Əbülfəz Elçibəyə arxa çevirən, AXP-ni dörd yerə bölərək qurumun möhürünü mənimsəyən, siyasi kampaniyalar ərəfəsində yaranan birlik və təşkilatlarda özünə yer tapan, məqsədinə çatmadığı üçün kəsdiyi duz-çörəyə tüpürən, cilddən- cildə girən, sonradan hamıya arxa çevirən Əli Kərimlinin ətrafının boş olması onun xəyanətkarlığından, hiyləgərliyindən, hər şeyə sahiblənmək istəyindən qaynaqlanır.

AXCP-yə sədrliyi ilə kifayətlənməyərək xarici havadarlarının sifarişi ilə "beşinci kolon"u formalaşdıran, "Milli Şura"nı özəlləşdirən Əli Kərimli xalqımıza qarşı xəyanətkar əməllərini bir neçə istiqamətdən davam etdirir. Cəmiyyətdə olduğu kimi, düşərgədə də xain, satqın mənəviyyatsız adam kimi tanınır.

Xarici dairələr üçün işləyən və öz ölkəsinin milli maraqlarına müxtəlif üsullar və metodlarla ziyan vuran "beşinci kolon"a topladığı gənclərin zehnini, mənəviyyatını korlayan Əli Kərimliyə azərbaycanlı adı, bu torpağda yaşamaq haqqı da haramdır.

Bütün dünya ictimaiyyəti Azərbaycanın Vətən müharibəsindəki qələbəsini XXI əsrin döyüş taktikası, hərb tarixinin hər zaman öyrənilən təcrübəsi adlandırdığı bir zamanda Əli Kərimlinin hər cəhdlə bu uğura kölgə salmaq niyyətləri bağışlanılmazdır. Bölgələrdə aparılan minatəmizləmə əməliyyatına belə siyasi don geyindirən, işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərinə qara yaxan xaini nəinki azərbaycanlı, insan adlandırmaq belə insanlığa ləkədir. İllər keçsə də, maliyyə mənbəyi dəyişsə də Əli Kərimlinin dəyişməyən bir mərəzi var: Xəyanətlərini, fitnəkar əməllərini başqalarının əli ilə yerinə yetirmək. Şəhid ailələrindən, evləri sökülənlərdən istifadə edən Əli Kərimli mitinqlərə pullu iştirakçı toplamaqda da mahirdir. 19 martda mitinq keçirmək istəyində olan AXCP sədri yenə də köhnə metodlardan istifadə etmək niyyətindədir. Amma çox yanılır. Çünki Ermənistan üzərindəki qələbəmizə sevinən, Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı üçün əlikərimlilər ölü canlar, arxivə atılmış siyasi tullantılardır.

***Xuraman İsmayılqızı***

## Leonid Kalaşnikov: Ermənistanda başa düşürlər ki, Rusiya və Azərbaycana qarşı şıltaqlıq etmək olmaz



Ermənistandakı daxili siyasi təlatümlər Qarabağ nizamlanmasına dair üçtərəfli bəyanatların icrasını təxirə sala bilər və bu mənada tətbiqetmənin effektivliyinə təsir edə bilər. Ancaq eyni zamanda, Ermənistanda hansı gücün hakimiyyətdə olacağından asılı olmayaraq, o, Qarabağla bağlı razılaşmanı yerinə yetirməli olacaq. SİA xəbər verir ki, bunu Rusiya Federasiyası Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmyerlilərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Moskva-Baku.Ru-ya deyib.

"Qeyri-sabitlik həmişə diqqəti yayındırır. Və bu, qeyri-sabitlik Qarabağda sülhə doğru irəliləmənin sürətinə təsir edəcəkdir. Ancaq eyni zamanda, bu, üçtərəfli razılaşmanı pozmayacaq və dəyişdirməyəcək - Ermənistanda kim hakimiyyətə gəlsə də, nə qədər qisas çağırışı olsa da. Razılaşma dəyişdirilə bilməz. Hər şey üç dövlət tərəfindən qəbul edilir. Ermənistandakı etirazçılar da bu reallığı başa düşürlər- Rusiya və Azərbaycan onların əylənəcəkləri, şıltaqlıq edəcəkləri oyunçu deyillər. Onlar düşünürlər ki, hakimiyyətə gələcəklər, "kağız parçası"nı kənara atacaqlar? Bəs bundan sonra nə olacaq? Qarabağa qoşun gətirəcəklər? Rusiya sülhməramlıları orada dayanıb. Buna görə intiqam ssenarisini həyata keçirmək cəhdi axmaqlıqdır. Ermənistandakı müxalifətçilər axmaq insanlar deyillər. Revanşist açıqlamalar verməklə, ölkədə mövcud olan çətinlikləri, daxili siyasi problemlərini həll etməyə çalışırlar. Ən inkişaf etmiş ölkələrin hər hansı birindəki müxalifət daima vəziyyətdən istifadə etməyə çalışır. Hər hansı bir ölkədə, hakimiyyəti və ya onun bir hissəsini öz əllərinə almaq üçün mövcud hakimiyyətin səhvlərindən (və ya düşündükləri kimi, səhvlərindən) istifadə edirlər. Deyək ki, iqtidara gəldilər. Ancaq mövcud reallıqlarda Rusiya və Azərbaycanla yanaşı yaşamalı və danışıqlar aparmalı olacaqlar, anlaşmanı dəyişdirməyin mümkün olmadığını başa düşəcəklər, çünki hesablaşmalı olduqları 2 ölkə var. Bunu indi də başa düşürlər.

Eyni zamanda, əminəm ki, üçtərəfli sazişin həyata keçirilməsinin və bölgədəki sülhə doğru hərəkətin təsiri Azərbaycanın Qarabağda və ətrafındakı azad edilmiş bölgələrdə necə həyat quracağından da asılıdır. Yalnız yaxşı işlər hər kəs üçün- azərbaycanlılar, ermənilər və bu ərazilərdəki digər millətlərin nümayəndələri üçün həyatın yaxşı, maraqlı və firavan olacağına hamını inandıra bilər. İnfrastrukturu bərpa etmək, ticarət əlaqələri qurmaq və həyatı yaxşılaşdırmaq lazımdır. Və sonra xalqlar və dövlətlər arasında yaxınlaşma olacaq"- Dövlət Duması komitəsinin rəhbəri deyib.

***Elçin***

## Hafiz Hacıyev: "Kərimov Əli kimi bir cındırın orada olmasındansa, olmaması daha yaxşı idi"

Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin və ictimai-siyasi şəxslərin işğaldan azad edilmiş ərazilərimizə etdikləri səfərləri yüksək qiymətləndirilməkdədir. Artıq bir sıra partiya sədrləri həmin səfərin təəssüratlarını bölüşür, habelə bunu xalq-dövlət birliyinin təcəssümü olaraq qiymətləndirirlər. "Bu səfəri çox yüksək səviyyədə dəyərləndiririk. Bu, Azərbaycan xalqının, Azərbaycan dövlətinin milli birlik təcəssümünün göstəricisi idi. Bu, həmçinin 44 günlük müharibədə Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların dəstəyinin nəticəsi idi və həmin partiyalar bundan sonra da ümummilli maraqlar, həmçinin dövlətçiliyimizin möhkəmlənməsi üçün hakimiyyətlə birliklərini nümayiş etdirəcəklər".



### MMP sədri: "Həmin səfərdə 49 partiyanın iştirakı xalqın iştirakı kimi də qiymətləndirilə bilər"

Bu sözləri SİA-ya Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev sözügedən mövzu ilə bağlı açıqlamasında bildirib və qeyd edib ki, o və digər partiya sədrləri səfər zamanı bir daha erməni faşistlərinin torpaqlarımıza nə qədər dərin ziyanlar vurduqlarının şahidəri olublar: "Müasir Müsavat Partiyası (MMP) adından cənab Prezident İlham Əliyevə minnətdarlığımızı bildiririk ki, o, həmin təşəbbüsü irəli sürməklə həyata keçirdi. Həmçinin, Administrasiyadakı müvafiq şöbələrə də minnətdarlığımızı çatdırırıq. Baş tutan səfər həmçinin sübut etdi ki, ölkə rəhbəri daim xalqı ilə bir yerdədir və həmin səfərdə 49 partiyanın iştirakı xalqın iştirakı kimi də qiymətləndirilə bilər". Partiya sədri bundan sonra dünyaya erməni vəhşiliyini daha geniş şəkildə təqdim ediləcəyini də bildirib: "Artıq biz həm daxilə, həm də xaricə mesaj veririk ki, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi, talana, virana məruz qoyması, qəbirləri dağıtması, mədəni irsimizi məhv etməsi, müqəddəs yerlərimizi təhqir etməsi vəhşilikdir. Qoy dünya dövlətləri də görsünlər ki, bir çoxlarının müdafiə etdikləri erməni faşistləri 21-ci əsrdə hansı vəhşi əməllərini, terrorlarını, soyqırımlarını həyata keçiriblər. Biz bugünə qədər belə bir möhtəşəm təşəbbüsün şahidi olmamışdıq və səfərin təşklində əziyyət çəkmiş bütün strukturlara öz təşəkkürlərimizi çatdırırıq".

### AXCP sədri və müsavatçı başqan hədəfdə: "Onların ayağı həmin torpaqlara dəyərsə, o torpaqlar murdarlanar"

Qeyd edək ki, sözügedən səfərdə özlərini Azərbaycanın "əsas müxalifət partiyaları" adlandıran iki partiya - Əli Kərimlinin sədri olduğu AXCP, Arif Hacılının başqanlıq etdiyi Müsavat partiyaları iştirak etməyiblər. Onlar səfərlə bağlı heç bir əsas gətirməyərək sübut ediblər ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası, işğaldan azad edilməsi faktı maraqlarında deyil. Məhz bu faktora toxunan Hafiz Hacıyev adıçəkilən hər iki partiyanı və onun rəhbərlərini sərt şəkildə qınayıb, ittiham edib və hətta ağır ifadələr də ünvanlayıb. "Qaldı ki, iki partiayaya onlar erməniərdən heç də geri qalmırlar, hətta belə deyərdim ki, AXCP və Müsavat faşist partiyaları kimi bir şeydirlər. Kərimov Əli kimi bir cındırın orada olmasındansa olmaması daha yaxşı idi. Əgər onun ayağı o torpaqlara dəyərsə, həmin torpaqlar murdarlanar.

Müsavat partiyasının başında qeyri-etik bir Arif Hacıyev dayanır. Onun bu günə qədər etdikləri də yalnız düşmən hərəkətləridir. Ümumiyyətlə, onlar hər zaman eyni fikirdə olublar. Qoy xalq da görsün ki, Azərbaycanın dar günündə kimlər dövlətçiliyinin yanında olub, kimlər isə dövlətin siyasətinə qarşı çıxmaqla ermənilərə xas olan xislətlərini gizətməyiblər."

### ASDP sədri Araz Əlizadə: "Əli Kərimli ilə Arif Hacılının boğazlarında qılçıq qalıb"

Xatırladaq ki, ötən gün Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə də SİA-ya açıqlamasında iki müxalifət partiyasını - AXCP-ni və Müsavatı, eləcə də onların rəhbərlərini şərt şəkildə qınayaraq, onların ümummilli maraqları təmin edən siyasət yürütmədiklərini bildirib, habelə qeyd edib ki, əslində, bu adamlar vaxtilə Qarabağın işğalına səbəb olan iqtidarın nümayəndələri olublar. Daha dəqiq desək, torpaqarımızın xəyanətkarlıq yolları ilə satılmasında iştirakı olan hakimiyyəti təmsil etmiş həmin adamlar indi Azərbaycanın qələbəsindən ermənilər qədər narahat olurlar.

Araz Əlizadə bildirib ki, iqtidarın bu təşəbbüsü çox layiqli addımdır və belə bir səfərdə iştirak etmək onda yalnız partiya sədri kimi deyil, həm də Azərbaycan vətəndaşı olaraq qürur doğurur, fərəhləndirir. Lakin istər AXCP sədri Əli Kərimlinin, istərsə də Müsavatın başqanı Arif Hacılının səfərə qatılmamalarından təəccüblənməyə dəyməz. "Bir halda ki, onlar vaxtilə Qarabağ torpaqlarını satıblarsa, indi onların bu torpaqlara gəlmək istəməmələri bu adamların aşkar düşüncələrinin təsdiqidir. Hazırda ermənilər işğal etdikləri əraziləri sarsıdıcı məğlubiyyətə uğrayaraq necə təhvil verməyə məcbur qalıblarsa, Əli Kərimli, Arif Hacılı kimiləri də onlar qədər pəjmürdə olublar. Bu qələbə onların boğazlarında qılçıq kimi ilişib-qalıb", deyə ASDP-nin sədri qeyd edib.

***Rövşən RƏSULOV***

# Sergey Şoyqu Qarabağdakı prosesin təfərrüatlarını açıqladı

**Moskva-Baku.Ru platformasında İna Lisovskayanın təqdimatında yayımlanan "Diqqət mərkəzində" analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı və video formasında oxucularımıza təqdim edirik.**

> Metyu Brayza: "Ermənistana sabit qaz tədarükünün davam etdirilməsinə kömək etməsi, Azərbaycanın nə qədər müsbət və insani davranış göstərdiyinin daha bir göstəricisidir"

## Dünyanın ən yaxşı şəhəri

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dünən Şuşa şəhərini ziyarət etdilər. Səfər çərçivəsində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini ziyarət etdilər. Orada Azərbaycan dövlətinin başçısı Heydər Əliyevlə 1982-ci ildə Şuşada Vaqif Poeziyası Günlərində çəkilmiş şəkilləri nümayiş etdirdi. Prezidentə kompleksin bərpası üçün bir layihə təqdim edildi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcəkdir. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcəkdir. 1992-ci ildə işğal qüvvələrinin Şuşadakı bu abidəni demək olar ki, tamamilə dağıtdığı qeyd edildi.

Prezident İlham Əliyev, işğal zamanı adı dəyişdirildiyini və qismən məhv edildiyini qeyd edərək "Qarabağ" otelini ziyarət etdi. Eyni zamanda, dövlət başçısı onu da bildirib ki, yaxın vaxtlarda Şuşada yeni otellər tikiləcək. İlham Əliyevin sözlərinə görə, şəhərə böyük turist axını gözlənilir, buna görə 5, 4, 3 ulduzlu otellər olmalıdır. Prezident şəhərin respublikanın ən gözəl yerlərindən birinə çevriləcəyinə əmin olduğunu bildirdi.

SİTAT: "İşğala son qoyanda dedim ki, Şuşa təkcə Azərbaycanın deyil, həm də dünyanın ən gözəl şəhərlərindən biri olacaqdır. 100 faiz belə olacaq".

Prezident Xocavənd rayonuna səfəri zamanı Hünərli kəndindəki Alban kilsəsini ziyarət edərkən, qədim Alban ziyarətgahlarının təmir ediləcəyini söylədi. Dövlət başçısı kilsəni erməniləşdirmək cəhdi olduğunu, ancaq bunun baş vermədiyini söylədi. İlham Əliyev ziyarətgahın dəhşətli bir vəziyyətdə olduğunu və daha çox zibilliyə bənzədiyini qeyd etdi.

SİTAT: "Bu, bizim qədim tarixi abidəmizdir, Udi qardaşlarımızın məbədidir. Onlar bura da gələcəklər. Ermənilər məscidlərimizi necə alçaltdılarsa, Alban məbədini də elə ləkələdilər. Bu kilsənin- Alban məbədinin belə bir vəziyyətdə olması bir daha ermənilərin saxtakarlığını nümayiş etdirir. Əgər bu erməni kilsəsi olsaydı, dağıtmazdılar, təmir etdirərdilər"

Prezident qeyd etdi ki, Azərbaycanda xristian ziyarətgahlarına hər zaman böyük hörmətlə yanaşılır.

SİTAT: "Azərbaycan ərazisindəki bütün dini məbədlər qorunur, dövlət tərəfindən tikilir və bunu bütün dünya bilir. Bütün dünya erməni vandalizmini bilməlidir, məscidlərimizin vəziyyətini görməlidir. Azad edilmiş torpaqlarda 67 məscid var idi ki, bunlardan yalnız 2-si qalıb, qalanı dağıdılıb. Üstəlik, bunlar müxtəlif məqsədlər üçün istifadə edilmişdir. Alban kilsəsi eyni vəziyyətə gətirilib. Bəlkə də burada mal-qara saxlayıblar, dəmir parçaları saxlayıblar, bəziləri burada qalıb. Buna görə hər kəs bunu görməli və bilməlidir".

Təcavüz əvəzinə humanizm

Bu gün məlum oldu ki, Rusiya qazının Ermənistana tədarükü Şimali Qafqaz - Zaqafqaziya qaz kəmərinin təmiri ilə əlaqədar olaraq Azərbaycan ərazisindən müvəqqəti həyata keçiriləcəkdir. Hazırda



Rusiyadan Ermənistana çatdırılma üçün Gürcüstan ərazisindən istifadə olunur. Bu barədə Rusiyanın "Qazprom İxracatı" məlumat verir.

SİTAT: "Şimali Qafqaz-Zaqafqaziya qaz kəmərində planlaşdırılmış profilaktik təmir işləri zamanı Rusiya qazı Azərbaycan ərazisi vasitəsilə istehlakçılara çatdırılacaqdır. Martın 16-da Qazprom Eksport və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Rusiya qazının Azərbaycan ərazisindən nəqli üçün qısamüddətli müqavilə imzalanmışdır.

Şirkətə görə, işlər təxminən 3 həftə çəkə bilər. Tamamlandıqdan sonra qaz əvvəlki marşrut üzrə Rusiya və Gürcüstan sərhədi boyunca nəql ediləcəkdir.

İstər Rusiyadan, istərsə də başqa bir ölkədən Azərbaycanın Ermənistana sabit qaz tədarükünün davam etdirilməsinə kömək etməsi, 2-ci Qarabağ müharibəsindən sonra Azərbaycanın nə qədər müsbət və insani davranış göstərdiyinin daha bir göstəricisidir. Bunu ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza Şimali Qazaxıstan- Zaqafqaziya qaz kəmərinin təmiri ilə əlaqədar Rusiya qazının Azərbaycan ərazisindən Ermənistana müvəqqəti tranzit keçməsinə dair razılaşmanı şərh edərkən söylədi.

SİTAT: "Təəssüf ki, siyasi böhran Ermənistanda elə bir psixoloji sarsıntı yaratdı ki, ölkə rəhbərliyi və hətta adi vətəndaşlar da çox vaxt onlar üçün hansı gözəl imkanların açıldığını başa düşə bilmirlər. Əlbəttə, bölgədəki bütün nəqliyyat kommunikasiyalarının açıq olacağını bildirən 10 noyabr razılaşması bir fürsətdir. Ümid edirəm ki, Ermənistan bu fürsətdən istifadə edəcək"- dedi.

## Bölgədə barışıq üçün təhdidlər

Ermənistan Azərbaycan ərazisinə hərbi personal göndərməyi dayandırmalıdır. Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu gün Slovakiyanın xarici işlər naziri İvan Korçokla birgə keçirdiyi mətbuat konfransında deyib.

SİTAT: "Biz hələ də 10 noyabr bəyanatının bəzi məqamlarında Ermənistanın konstruktiv yanaşmasını görmürük. Bəyanata görə, Ermənistan bütün hərbi birləşmələrini Azərbaycan ərazisindən çıxarmağı vəd etdi. Ermənistan Azərbaycan ərazilərinə qoşun göndərməyi dayandırmalıdır. Bu, bölgədə sülh və sabitliyə təhlükə yaradır".

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov əmindir ki, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli bəyanatlar bölgədə yeni imkanlar yaradır.

SİTAT: "Üçtərəfli bəyanatlar ticarət əlaqələrinin bərpası üçün geniş imkanlar yaradır. Bölgədəki digər ölkələr kimi, Ermənistan da sülhdən faydalanacaqdır. Bunun üçün ölkələr öhdəliklərini vicdanla yerinə yetirməlidirlər. Lakin bəzi hallarda hələ də Ermənistandan konstruktiv yanaşma görmürük ".

Bayramov, eyni zamanda, bu ərazilərdəki minaların partlayışı nəticəsində 18 nəfərin öldüyünü, 78 nəfərin ağır yaralandığını və son hadisənin dünən- Ağdamda baş verdiyini, 7 nəfərin minaya düşdüyünü, ölən və yaralananların olduğunu xatırlatdı. Xarici işlər naziri qeyd etdi ki, dünya ictimaiyyəti minalanmış ərazilərin xəritələrini təqdim etmək üçün Ermənistana təzyiq göstərməlidir.

Əlavə edirik ki, Azərbaycanın Ağdam rayon prokurorluğundan bir gün əvvəl, 16 mart tarixində, saat 16:00 radələrində, işğal altında olan ərazidə piyada əleyhinə minanın partlaması nəticəsində 7 mülki şəxsin zərər gördüyünü - 4 nəfərin çoxsaylı ağır xəsarət aldığını, 2-nin öldüyünü, uşağın xəsarət almadığını açıqlayıb.

Onu da qeyd etmək lazımdır ki, hakimiyyət orqanları və şəxsən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə sakinlərin işğaldan azad edilmiş Qarabağ ərazilərinə getməkdən çəkinmələrini tövsiyə etmişdir, çünki minalardan təmizləmə prosesi hələ davam edir və Ermənistanın hələ də Azərbaycana minalanmış ərazilərin xəritəsini verməməsinə görə bu iş çətinləşir.

## Çox çətin bir əməliyyat

Dağlıq Qarabağ- çox çətin bir əməliyyat idi. Rusiya Müdafiə naziri Sergey Şoyqu bu gün jurnalistlərə açıqlamasında belə deyib. O, bu prosesin çox çətin məqamları nəzərə almaq lazım olduğunu, çox çətin bir iş olduğunu qeyd etdi.

SİTAT: "Dağlıq Qarabağ probleminin həlli çox çətin bir əməliyyat idi. Onu məhz bu cür adlandırmaq istərdim, başqa cür yox. Çünki buna çox sayda arqument, element, motiv daxil idi. Axı razılaşmaq lazımdır ki, iki qardaş xalq, iki yaxın qonşu bir-biri ilə sülh, harmoniya və dostluq içində yaşamağa davam etməlidir"

Şoyqu, bununla yanaşı Türkiyənin də əhəmiyyətli bir rol oynadığını, türk həmkarları ilə danışıqların aparıldığını söylədi.

Nazir Rusiya Prezidenti Vladimir Putinin Qarabağla bağlı razılaşmaya böyük töhfə verdiyini qeyd etdi.

SİTAT: "İnanın, bütün bunları reallaşdırmaq üçün prezidentimiz çox böyük bir səy göstərdi. Və hər kəsi inandırmaq məcburiyyətində qaldı. Yəni, kimsə kiməsə "Razıyam, sadəcə onları inandırın" deməklə olmurdu. Xeyr, təbii ki, hamını razı salmaq lazım idi. Həm də həmkarlarımız və ya müdafiə nazirlərimiz səviyyəsində türk həmkarlarımızla da danışdıq. Ancaq bu gün görülən əsas iş, birincisi, insanların bir-birini öldürməsini dayandırmasıdır. İkincisi, ümid edirəm ki, indi ikitərəfli təmaslara keçməyin və bir-birinizlə danışmağa başlamağın vaxtıdır. Ermənistan və Azərbaycanı nəzərdə tuturam".

Nazir Rusiya ilə Türkiyə arasındakı münasibətlərin burada çox əhəmiyyətli bir rol oynayacağını vurğuladı və yeni iştirakçıların da ortaya çıxdığını qeyd etdi. Məsələn, İran. Müdafiə naziri vurğulayıb ki, indi infrastrukturun bərpası, nəqliyyat əlaqələrinin bərpası və rabitə kanallarının açılması çox vacibdir.

## Təhlükəsizlik tədbirləri ilə tətil

Bu gün Azərbaycanın baş infeksionisti Təyyar Eyvazov əhalini Novruz tətilində diqqətli olmağa və əvvəllər tətbiq olunan bütün epidemioloji təhlükəsizlik tədbirlərinə riayət etməyə çağırdı.

Mediada Azərbaycanda karantin sərtləşdirilməsinin mümkünlüyü barədə də məlumatlar yayılmışdı, lakin bu, martın 19-dan tez bilinməyəcəkdir. Elə o tarixdə ölkənin Nazirlər Kabineti yanında Əməliyyat Qərargahının brifinqi keçiriləcəkdir. Ehtimal olunur ki, brifinqdə ölkədə koronavirusun Britaniyada ştammının aşkarlanması ilə bağlı sərt tədbirlər açıqlanacaq.

Qeyd edək ki, qarşıdan gələn Novruz tətili ilə əlaqədar olaraq Azərbaycan 9 qeyri-iş günü elan edib. Bu baxımdan çoxları bölgələrə getməyi planlaşdırır. Mütəxəssislər bunun öz növbəsində virusun daha da geniş yayılmasına, xüsusilə də ən təhlükəli Britaniya ştammının yayılmasına səbəb ola biləcəyi barədə xəbərdarlıq edirlər. Bu koronavirus ştammı ən təhlükəli sayılır, sürətlə yayılır və daha şiddətlidir. Bir çox Avropa ölkəsi məhz Britaniya ştammı səbəbindən 3-cü dəfə sərt katantinə getdi.

Bu gün Azərbaycanda daha 840 koronavirus infeksiyası hadisəsi aşkar edildi, 268 nəfər sağaldı, 9 nəfər öldü.

İnfeksiya ilə bağlı bütün çətinliklərə baxmayaraq, Azərbaycan əhalisi Novruzu qeyd etməyə hazırlaşır. Beləliklə, bir gün əvvəl, 29 il sonra işğaldan azad edilən Şuşada Novruz bayramı atəşi yandırıldı. İnternetdə yayımlanan kadrlarda alovun yanında Şuşanın simvollarından biri olan xarı-bülbül çiçəyinin təsvirinin olduğu göstərilir. Azərbaycanın dövlət bayrağı Şuşa qalasınının üzərində dalğalanır və şəhərin adının yenilənmiş hərfləri də qalanın üstünə qoyulub.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

*Verilişə buradan baxa bilərsiniz*
*https://www.youtube.com/watch?v=9BbBfcppI84*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

19 mart

## Ronaldo təkid etdi, Azərbaycanla oyun bu arenaya salındı




**DÇ-2022-nin Portuqaliya - Azərbaycan oyununun Turindəki "Allianz Arena"ya təyin edilməsinin səbəbi bəlli olub. Qol.az İtaliyanın "Tuttosport" nəşrinə istinadən xəbər verir ki, bu görüşün "Yuventus"un stadionunda keçirilməsinə komandanın hücumçusu Kriştiano Ronaldo təkid edib.**

Məlum olduğu kimi, koronavirus pandemiyasına görə Portuqaliya rəqiblərini evdə qəbul edə bilmir. Bu səbəbdən matçın neytral meydanda keçirilməsi zərurəti yaranıb. Oyunun məhz Turində keçirilməsi təşəbbüsü də Ronaldoya məxsus olub. Bundan başqa, Portuqaliya millisi kapitanın vasitəsi ilə məşqlərini "Yuventus"un bazasında keçirəcək. Hazırlıq prosesinin martın 22-dən başlanacağı gözlənilir.

Qeyd edək ki, "Yuventus"un hücumçusu olan Ronaldo gündəlik məşqlərini burada keçirdiyindən meydana tam uyğunlaşıb. Bildirilir ki, Portuqaliya millisi Turində olduğu müddətdə bazanın yaxınlığındakı oteldə qalacaq. Azərbaycan millisinə gəlincə, komandamızın Vinovoda yerləşən "Yuventus"a məxsus başqa məşq meydançasında hazırlıq keçəcəyi bildirilir. Orada adətən gənclər və qadınlardan ibarət komandalar məşq edir. Xatırladaq ki, Portuqaliya - Azərbaycan görüşü martın 24-də keçiriləcək.

## İkinci "El Klassiko"nun vaxtı açıqlandı




Futbol üzrə İspaniya La Liqasının 30-cu turunda keçiriləcək "Real" - "Barselona" matçının vaxtı müəyyənləşib. "Marca" nəşrinin yazdığına görə, aprelin 10-u oynanılacaq görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Qeyd edək ki, bu komandalar arasında 2020/2021 mövsümündə ötən il oktyabrın 24-də keçirilən ilk "El Klassiko"da Madrid təmsilçisi "Kamp Nou"da Kataloniya klubuna 3:1 hesabı ilə qalib gəlib.

## Rihanna Pol Makkartninin qonşuluğunda yaşamaq üçün təqribən 14 milyon dollar ödədi




**Amerikalı pop müğənni Rihanna Kaliforniya ştatının Beverly Hills şəhərində 13,8 milyon dollara (23,4 milyon manata) ev alıb. Bu barədə "Daily Mail" xəbər verib.**

Bildirilir ki, malikanə Britaniyanın "The Beatles" musiqi qrupunun keçmiş üzvü Pol Makkartninin imarətinin qonşuluğunda yerləşir. Ulduzun digər qonşuları arasında məşhur ifaçı Meray Keri də var.



## Binəqədidə üç avtomobil toqquşub, bir nəfər ölüb

Binəqədi rayonunda üç avtomobil toqquşub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Xocəsən qəsəbəsi ərazisində Bakı şəhər sakini V.Quliyev idarə etdiyi "Opel" markalı avtomobili qarşıda gedən Abşeron rayon sakini E.Nəbiyevin idarə etdiyi "AzSamand" markalı avtomobilə vurub. "Opel" markalı avtomobil daha sonra yolun kənarında dayanmış "Mercedes" markalı yük avtomobilinə dəyib. Nəticədə V.Quliyev aldığı xəsarətlərdən hadisə yerində ölüb, sərnişini xəstəxanaya yerləşdirilib. Faktla bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## Artıq çəkili insanlar koronavirusun super ötürücüləri hesab edildi



**Artıq çəkili insanlar COVID-19-un super ötürücüləridir. PNAS portalının məlumatına görə, Massaçusetts Texnologiya İnstitutunun və Harvardın alimlərinin birgə apardıqları araşdırmadan sonra bu məlum olub.**

Alınan nəticələrə görə, yüksək bədən kütlə indeksi (BKİ) olan insanlar və yaşlılar daha çox virus hissəcikli tənəffüs damlaları ifraz edirlər.

Mütəxəssislər super yayıcılığın selikli qişanın zədələnməsi ilə əlaqəli olduğunu düşünürlər. Məlumdir ki, yaşlı və kök insanlar koronovirusu daha ağır forma keçirirlər, ona görə də bu problem onlarda daha çox müşahidə olunur. Alimlər onu da vurğulayıblar ki, xəstəliyin gedişatının ağırlığı da koronavirusun yayılma sürətinə təsir edir. Ağciyərlər ciddi şəkildə təsirlənən insan super ötürücü ola bilər.

## DİN: İçkilisənsə, sükanı unut!



Daxili İşlər Nazirliyi (DİN) sürücülərə müraciət edib. XəzərXəbər xəbər verir ki, bu barədə DİN sosial şəbəkədə məlumat paylaşıb. Müraciətdə deyilir: "Sürücülərin nəzərinə! Əgər spirtli içki qəbul etmisinizsə, heç bir halda avtomobili idarə etməyin. Az miqdarda spirtli içki də sevincinizi kədərə çevirə bilər. Unutmayın ki, sükan arxasında sərxoş vəziyyətdə əyləşməklə özünüzün və başqalarının həyatına qəsd etmiş olursunuz. Sonradan ömür boyu peşmançılıq çəkməkdənsə bu səhvə yol verməməyə çalışın. İçkilisənsə, sükanı unut, ayıq olana etibar et, insan həyatı daha önəmlidir!"

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**